# Qışın fəsadları artır

## Qarda sürüşərək yıxılan 49 nəfər təcili tibbi yardıma müraciət edib



**Qarlı hava şəraiti ilə əlaqədar yıxılma səbəbilə TƏBİB-in tabeliyindəki Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 49 müraciət daxil olub.**

Bu barədə "Şərq"ə TƏBİB-dən bildirilib. Xəsarət alanlardan 48-i (28-i qadın, 20-i kişi olmaqla) aidiyyəti üzrə tibb müəssisəsinə hospitalizasiya olunub. 1 nəfərə (kişi olmaqla) isə yerində ilkin tibbi yardım göstərilib. Müraciətlər əsasən diz, çanaq, bilək, topuq, çiyin və əl nahiyələrinin travmaları ilə bağlı olub.

*Xəsarət alanlardan 1-i uşaq, digərləri isə 17-85 yaş aralığında şəxslər olub.*

# Paşinyandan etiraf

## Dünyada Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımayan ölkə yoxdur



**Dünyada elə bir ölkə yoxdur ki, Qarabağı Azərbaycanın tərkib hissəsi saymasın.**

APA news.am-a istinadən xəbər verir ki, bu barədə Ermənistan Baş naziri Nikol Paşinyan bugünkü mətbuat konfransında deyib.

*O qeyd edib ki, Praqa görüşündə tərəflər 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünü tanıması barədə razılıq əldə edib.*


№ 4 (5765), 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 yanvar 2023-cü il (çərşənbə)




# 40 manat az pul deyil

## Piyadalara su sıçradan sürücülər cərimələnəcək

**Yağışlı və qarlı havalarda Bakı yollarında vəziyyət acınacaqlı hal alır. Yollardakı su gölməçələri piyadalar üçün problemə çevrilir.**

Elə sürücülər var ki, yol kənarında dayanan piyadaları belə nəzərə almır. Əksinə, sürət həddini dah da yüksəldərək, onların üst-başlarını batırmağa nail olurlar. Sürücülər isə iddia edir ki, bu onların yox, paytaxt yollarını təmir etməyə məsul qurumların günahıdır. Elə yollar var ki, kələ-kötür, dağınıq haldadır. Yağıntılı havalarda da təbii olaraq bu yollar keçilməz vəziyyətdə olur. Üstəlik, əksər küçələr doğru-düzgün asfaltlanmadığı və su-kanalizasiya sistemi lazımi qaydada quraşdırılmadığı üçün yağışlı havalarda yollarda sel axır. İstər-istəməz, belə yollarda piyadaların üzərinə su sıçrayır.

(səh.3)



# Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik

## Prezident İlham Əliyev: "Deportasiya olunmuş azərbaycanlıların Qərbi Azərbaycana qayıtmaları ermənilərə problem yaratmayacaq"

**"Böhranlı vəziyyəti xalqımız üçün sosial layihələr və sosial proqramlarla yüngülləşdirməyə çalışırıq". Bu barədə Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib. Dövlət başçısı qeyd edib ki, dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır:**

"Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq".

(səh.2)

# Fuad Nəcəfli nöqsanlardan danışıb

## Naxçıvanda büdcə vəsaitlərindən təyinata uyğun istifadə edilməyib



**Xəbər verdiyimiz kimi, bu gün altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sessiyada çıxış edib.

*Qeyd edilib ki, bu gün sessiyada Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına nəzər salınıb, eyni zamanda 2023-cü il büdcəsi, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələri təsdiq edilib.*

(səh.2)

# Paşinyan Putinə meydan oxudu

## Ermənistan KTMT və MDB-dən çıxa bilər



"Belə görünür, Ermənistan Moskvanı şantaj etməklə Rusiyanı Laçın yolundakı aksiyaya qarşı addım atmağa sövq etdirmək istəyir"

**Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxması üçün prosesə start verilib.**

Baş nazir Nikol Paşinyan ölkəsinin KTMT təlimlərinə ev sahibliyi etməyəcəyini bildirib. Onun sözlərinə görə, Ermənistanda hazırkı vəziyyətdə KTMT-nin "Sarsılmaz qardaşlıq" təlimlərinin keçirilməsi məqsədəuyğun deyil. Xatırladaq ki, əvvəlki dönəmlərdə Ermənistan Baş naziri Nikol Paşinyan müxtəlif vasitələrdən istifadə edərək KTMT-dən Azərbaycana qarşı istifadə etməyə cəhd göstərmişdi.

(səh.3)

# Rusiya hərbi kontingentinin yük maşınları yoxlanmalıdır

## Laçın yolunda sərhəd və gömrük xidmətinin yaradılmasına keçid edilməsi zərurəti yaranıb



**Qarabağdakı qızıl və mis yataqlarında monitorinq tələbi ilə bir aydır davam edən aksiyanın müsbət nəticələri var.**

Ermənistan hakimiyyətinə, erməni separatçılarına, Rusiyaya və Qərbə göstərdik ki, Ermənistanla Qarabağı birləşdirən yolu nəzarətə götürmək hüququmuz var. Ancaq hadisələrin gedişatı göstərir ki, bu, kifayət etməyəcək, Laçın yolundakı hədəflərimizi böyütmək məcburiyyətindəyik.

Rusiya hərbi kontingentinə məxsus yük maşınları Şuşa-Xankəndi yolundan sərbəst şəkildə keçərək, Qarabağdan Ermənistana, Ermənistandan Qarabağa maneəsiz hərəkət edirlər. Bəzən bir gün ərzində 25 nəqliyyat vasitəsi yoldan maneəsiz şəkildə keçid edir.

(səh.3)



# Müəllim və həkimlərin də maaşları artacaq

## Konkret artım faizləri bu il fevralın 5-dək müəyyən ediləcək

**"Minimum əməkhaqqı 345 manata çatdırılıb. Artım sadəcə aşağı maaş alanlarla bağlı deyil. Sərəncam vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək".** Bu barədə millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib. Deputat bildirib ki, dövlət büdcəsindən maliyyələşən sahələrdə çalışan işçilərin aylıq vəzifə maaşları da Sərəncama uyğunlaşdırılacaq: "Məbləğindən asılı olmayaraq, bu sektorlarda çalışanların maaşları artırılacaq.

(səh.7)

# 4 nəfər vəfat edib

## 69 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 69 yeni yoluxma faktı qeydə alınıb, 12 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 826 993 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 816 434 nəfər müalicə olunaraq sağalıb, 10 027 nəfər vəfat edib, aktiv xəstə sayı 532 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 503, hazırkı dövrədək isə 7 447 795 test aparılıb.*

# Kürdə 20 gün əvvəl batan şəxsin axtarışları davam edir



**Fövqəladə Hallar Nazirliyinin dalğıc-axtarış qrupları tərəfindən 21 dekabr 2022-ci il tarixində Kür çayının Tovuz rayonunun Qədirli kəndi ərazisindən keçən hissəsində batması ehtimal olunan 1974-cü il təvəllüdlü Məmmədov Eldəniz Mikayıl oğlunun axtarışları davam etdirilir.**

Bu barədə "Şərq"ə FHN-dən bildirilib. Xəbərə görə, əlverişsiz hava şəraitinə baxmayaraq, FHN-in Xüsusi Riskli Xilasetmə Xidməti və Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupları vətəndaşın batdığı ehtimal edilən istiqamətlərdə axtarış-xilasetmə tədbirlərini həyata keçirirlər.



# Aqşin Yenisey erməni cəmiyyətinə müraciət edəcək

## "Mən heç bilmirəm şeirimin başına nə cür oyun açıblar!?"

(səh.4)



# "Biz də öz evimizə qayıtmaq istəyirik"

## Flora Qasımova: "Hər kəs öz evinin ünvanını da bilir, harada, hansı ərazidə yaşadığını da..."

(səh.5)

# Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik

## Prezident İlham Əliyev: “Deportasiya olunmuş azərbaycanlıların Qərbi Azərbaycana qayıtmaları ermənilərə problem yaratmayacaq”

**“Böhranlı vəziyyəti xalqımız üçün sosial layihələr və sosial proqramlarla yüngülləşdirməyə çalışırıq”. Bu barədə Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib. Dövlət başçısı qeyd edib ki, dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır:**

”Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq”. Ölkə rəhbəri deyib ki, dünya üçün bu böhranlı vəziyyəti biz xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirməyə çalışırıq: ”Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bir daha bunu göstərir. Yəni müharibədən təzə çıxmış ölkə, özü də ərazisinin 20 faizi tamamilə dağılmış vəziyyətdə olan ölkə əgər sosial sahəyə bu qədər vəsait ayırırsa, deməli, bizim sosial siyasətimiz dəyişməz olaraq qalır və əlbəttə ki, bizim iqtisadi gücümüzü göstərir”.

**“İkinci Qarabağ müharibəsinin nəticələri dünya tərəfindən qəbul edilib”**

*Prezident vurğulayıb ki, İkinci Qarabağ müharibəsinin nəticələri dünya tərəfindən qəbul edilib:* ”İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi. Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik. Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün - artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik”.

**“Bu gün Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır”**

*Dövlət başçısı bəyan edib ki, bu gün Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır:* ”Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Çünki mən bunun canlı şahidiyəm ki, müharibədən sonra onsuz da Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı, yəni bizə olan rəğbət daha da artdı. Çünki dünyanın siyasi elitası yaxşı başa düşür ki, biz bu Qələbəni nəyin bahasına əldə etdik, hansı risklərə getdik, hansı qüvvələrlə mübarizə aparırdıq və bu gün də aparırıq. Yəni müharibə bitsə də, mübarizə hələ davam edir və əminəm ki, biz qalib gələcəyik. Çünki biz haqq yolundayıq və bizim həm hərbi, həm siyasi gücümüz, o cümlədən iqtisadi müstəqilliyimiz gücümüzü əlbəttə ki, artırır”.

**“Azərbaycanın xarici borcu ümumi daxili məhsula nisbətdə kəskin azalaraq 9,5 faizə enib”**

*Prezident qeyd edib ki, Azərbaycanın xarici borcu ümumi daxili məhsula nisbətdə kəskin azalaraq 9,5 faizə enib:* ”Azərbaycanın xarici borcu 7 milyard dollardan azdır, həm də ümumi daxili məhsula nisbətdə kəskin azalıb. Əgər keçən ilin əvvəlində xarici borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edirdisə, keçən ilin yekunlarına görə bu, 9,5 faizə düşüb. Yəni müqayisə üçün deyə bilərəm ki, bir çox inkişaf etmiş ölkələrdə bu, 100 faiz hətta 130-150 faizdir. Biz iqtisadi cəhətdən müstəqilik, əgər biz indi istəsək, yenə də beynəlxalq maliyyə qurumları ilə kreditlərin cəlb edilməsi üzrə işlərə başlaya bilərik, əslində başlamışıq. Çünki həm Dünya Bankı ilə, həm Avropa Yenidənqurma və İnkişaf Bankı ilə icraatda olan layihələr demək olar ki, başa çatır. Dünyanın hər iki aparıcı maliyyə qurumunun yüksəkvəzifəli nümayəndələri keçən il Bakıda olublar və aparılan müzakirələr zamanı yeni istiqamətlər müəyyən edilib. Yəni mən tam əminliklə deyə bilərəm ki, biz limitsiz xarici kreditlərin cəlb edilməsində heç bir problem görməyəcəyik”.

**“Məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir”**

*Prezident bildirib ki, hələlik limitsiz xarici kreditlərin cəlb edilməsinə ehtiyac yoxdur:* ”Ona görə iqtisadi və sosial sahə həmişə paralel getməlidir. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir”.

**“Keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə - 134 milyard manata çatıb”**

*Prezident qeyd edib ki, keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə - 134 milyard manata çatıb:* ”Biz bütün işləri öz hesabımıza edirik, müharibədən sonra heç kimdən yardım almamışıq. Sadəcə olaraq, iki ölkənin - Özbəkistanın və Qazaxıstanın prezidentləri Füzulidə iki məktəbin tikintisinə özləri təşəbbüs göstəriblər. Bundan başqa biz heç bir yerdən bir manat yardım almamışıq. Ona görə iqtisadi müstəqillik mütləq güclənməlidir və keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə çatıb. Son dəqiqləşdirilmiş məlumata görə, 134 milyard manata çatıb. Bu da təxminən 80 milyard dollara bərabər olan rəqəmdir. Əlbəttə ki, həm də xarici ticarət artıb, 50 milyard dolları ötüb. Xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir. Yəni iqtisadiyyatla məşğul olanlar bilirlər ki, bu, nə deməkdir və eyni zamanda bizim xarici borcumuz azalıb”.

**Prezident Azərbaycandakı inflyasiyanı idxal edilmiş inflyasiya adlandırıb**

*Prezident İlham Əliyev Azərbaycandakı inflyasiyanı idxal edilmiş inflyasiya adlandırıb:* ”İnflyasiya bu gün bütün dünyada ciddi bir problemə çevrilib. Hətta inkişaf etmiş Qərb ölkələrində ki, orada adətən inflyasiya bir faizdən, yəni bir və maksimum 1,5 faizdən yüksək olmurdu, bu gün inflyasiya 10 faizi üstələyir”. Azərbaycandakı inflyasiyanı idxal edilmiş inflyasiya adlandıran dövlət başçısı deyib: ”Çünki biz əlbəttə, dünya iqtisadiyyatının bir parçası olduğumuz üçün bir çox malları idxal edirik və bu istiqamətdə də çalışırıq ki, idxalı əvəzləyən yerli istehsal daha geniş vüsət alsın. Amma hələ təbii ki, idxaldan asılıyıq. Ona görə, əgər belə demək mümkündürsə, inflyasiya Azərbaycana idxal edilib. Keçən ilin nəticələrinə görə, 13,9 faiz təşkil edib. Yəni bu idxal edilmiş inflyasiya ilə bizim mübarizə imkanlarımız kifayət qədər məhduddur”.

**Minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıb**

*Ölkə başçısı qeyd edib ki, minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıb və minimum əməkhaqqı artıq 345 manata çatıb:* ”Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağı və



Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq”. Dövlət başçısı deyib ki, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək: ”Bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, gələcəkdə də buna oxşar addımlar atılacaq”.

**“Bu il Azərbaycanda orta aylıq əməkhaqqının 900 manatdan çox olacağı gözlənilir”**

*Prezident bildirib ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqının 900 manatdan çox olacağı gözlənilir:* ”Ünvanlı sosial yardımın verilməsi ilə bağlı çox böyük şəffaflaşdırma işi aparılıb. Əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Ehtiyacı olmayan insanlara sosial yardım verilirdi və əlbəttə ki, bunun arxasında təmənna dayanırdı. Ehtiyacı olan insanların isə buna əli çatmırdı. Ona görə bu sahədə çox geniş təftiş işi aparılıb. Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq. Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxa-dayaq oluruq, eyni zamanda, biz öz siyasətimizə sadiqliyimizi göstəririk”.

**“Bu günədək 13 min şəhid ailəsi və müharibə əlili dövlət dəstəyindən faydalanıb”**

*Prezident İlham Əliyev deyib ki, bu günədək 13 min şəhid ailəsi və müharibə əlili dövlət dəstəyindən faydalanıb:* ”Ötən il şəhid ailələri və müharibə əlillərinə dəstək istiqamətində də önəmli addımlar atılıb. Bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verilib, 2021-ci ildə isə 3 min mənzil verilmişdi. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək. Bu günə qədər 13 min ailənin bu imkanlardan faydalandığını diqqətə çatdıran dövlət başçısı deyib: ”Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz bunu nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq”.

**“Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik”**

*Prezident deyib ki, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik:* ”İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Yəni biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir”. Sosial sahənin çoxşaxəli olduğunu qeyd edən dövlət başçısı deyib ki, buraya özünüməşğulluq proqramını da əlavə etmək olar: ”Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək”.

**“Çox geniş proqram hazırlanır”**

*Prezident İlham Əliyev qeyd edib ki, deportasiya olunmuş azərbaycanlıların Qərbi Azərbaycana qayıtmaları ermənilərə problem yaratmayacaq:*

”Çünki onların oraya qayıtmaları orada yaşayan ermənilərin oradan çıxarılması demək deyil. Çünki o kəndlər boşdur və biz, əlbəttə ki, əlimizdə olan bütün imkanlardan istifadə edəcəyik”.

”Necə ki, vaxtilə Qarabağ mövzusu bütün Azərbaycan xalqını birləşdirdi və biz istəyimizə nail olduq, eyni yanaşmanı burada da görməliyik. Əlbəttə, burada media nümayəndələrinin fəaliyyətinə böyük ehtiyac var - həm ölkə daxilində, həm xaricdə. Mən bu barədə də fikirlərimi bildirmişəm. Yəni, çox geniş proqram hazırlanır”, - deyə dövlət başçısı bildirib.

Prezident deyib ki, bizim bütün proqramlarımız bir qayda olaraq icra edilir: ”Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik. Ona görə bu sahədə də artıq proqramın üzərində iş gedir. Əminəm ki, biz buna da nail olacağıq və tarixi ədaləti bərpa edəcəyik”.

**Biz tam haqlı olaraq Qərbi azərbaycanlıların hüquqları mövzusunu beynəlxalq arenaya çıxarmışıq**

*Prezident bildirib ki, bu gün sirr deyil ki, Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış İcma kimi öz hüquqlarından məhrum idi:*

”Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq”.

Dövlət başçısı deyib: ”Mənim tövsiyələrim, yəni, dekabrın 24-də verdiyim tövsiyələr yerinə yetirilir. Xüsusi işçi qrupu yaradılıb, verdiyim bütün tapşırıqlar və eyni zamanda, yerlərdən gələn təkliflər əsasında biz vahid konsepsiya üzərində işə başlamışıq. Əlbəttə ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Yenə də mən orada da İcmanın nümayəndələri ilə görüş zamanı demişdim ki, biz bunu sülh yolu ilə etmək istəyirik və əminəm ki, buna nail olacağıq”.

Prezident İlham Əliyev qeyd edib ki, bu gün bizim məkanda, ümumiyyətlə, Avrasiya məkanında monodövlətlər yoxdur və Ermənistan üçün də yaxşı olar ki, bu monodövlət damğasını öz üzərindən götürsün. Bunun ən yaxşı və ən ədalətli yolu Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarıdır.

**Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycana qazla bağlı 10-dan çox ölkə müraciət edib**

*Prezident İlham Əliyev müsahibəsində söyləyib ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycana 10-dan çox ölkədən müraciətlər daxil olub:*

”O ölkələrdən ki, indi bizim qazımızı alırlar və istəyirlər əlavə qaz təchizatı təmin edilsin və o ölkələrdən ki, heç vaxt bizdən qaz almırdılar, amma onlar da bu proqrama qoşulmaq istəyirlər. Təbii ki, burada Azərbaycanın rolu artır və biz də, əlbəttə, bundan istifadə etməliyik.

”Biz heç vaxt qaz və neft sahəsindəki siyasətimizi ümumi siyasi kontekstin əsas amilinə çevirməmişik. Çünki biz hesab edirik ki, siyasət ayrı, bu ayrı. Amma indi dünyada enerji siyasəti ümumi geosiyasi vəziyyətlə tamamilə vəhdət təşkil etdiyi üçün bu amili də inkar etmək olmaz. Əlbəttə, bizim həm iqtisadi, həm siyasi önəmimiz artır və əgər Avropanı qidalandıran qaz kəmərlərinə baxsaq görərik ki, onların sayı o qədər də çox deyil. Yəni, mövcud təchizatçılar, sadəcə olaraq, qaz hasilatını artırırlar, çünki Avropada böyük tələbat var. Yeni təchizatçılar arasında isə Azərbaycan təkdir”, - dövlət başçısı deyib.

Avropa İttifaqı ilə təkcə energetika sahəsində yox, bütün sahələrdə çox fəal əməkdaşlığımızın olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev qeyd edib ki, diqqət Azərbaycan üzərinə yönəldilir: ”Əlbəttə, biz öz məsuliyyətimizi də dərk edirik və çalışırıq ki, yeni tərəfdaşlar üçün də etibarlı tərəfdaş olaq”.

**İsmayıl**

# Fuad Nəcəfli nöqsanlardan danışıb

## Naxçıvanda büdcə vəsaitlərindən təyinata uyğun istifadə edilməyib



**Xəbər verdiyimiz kimi, bu gün altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilib.**

APA-nın yerli bürosu xəbər verir ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sessiyada çıxış edib.

Qeyd edilib ki, bu gün sessiyada Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına nəzər salınıb, eyni zamanda 2023-cü il büdcəsi, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələri təsdiq edilib.

“Biz bu vəsaitlərdən maksimum səmərəli istifadə etməliyik. Təbii ki, Naxçıvan Muxtar Respublikasında bir çox istiqamətlər üzrə nöqsanlar vardır. Xüsusilə ötən illər ərzində büdcə vəsaitlərindən təyinata uyğun istifadə edilmədiyi müəyyən olunub. Bundan əlavə vətəndaşlarla iş sahəsində buraxılan nöqsanlar, şəhid ailələri və qazilərin problemləri birmənalı şəkildə həll olunmalıdır”, - o qeyd edib.

Səlahiyyətli nümayəndə ümumi inkişaf istiqamətlərini diqqətə çatdıraraq deyib ki, ilin əvvəlindən etibarən fəaliyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu və digər sahələrdə müəyyən etdiyi istiqamətlərə uyğun qurulmalı, qarşıya qoyulan vəzifələr icra edilməlidir.

# İran tərəfinə diplomatik dillə xəbərdarlıq var

## Spikerimiz İran rejiminin iç üzünü çox ustalıqla açıb göstərdi

**Türkiyənin Antalya şəhərində işgüzar səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf ilə görüşüb. Görüşdə ikitərəfli gündəliyin aktual məsələləri, postmünaqişə dövründə regionda mövcud olan vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

Spiker Sahibə Qafarova Azərbaycanın regionda sülh və təhlükəsizliyin təmin olunması və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində təşəbbüsləri haqqında məlumat verib. Görüşdə həmçinin parlamentlərarası əlaqələrin mövcud vəziyyəti haqqında da müzakirələr aparılıb. İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf deyib ki, Azərbaycan İran üçün xüsusi əhəmiyyət kəsb edir. Bildirib ki, iki ölkənin rəsmiləri münasibətləri inkişaf etdirmək üçün çox istəklidirlər: ”Regional və qlobal arenada bir-birimizlə yaxşı münasibətlərimiz ola bilər. Region ölkələri nə qədər yaxın olarsa, bölgə üçün bir o qədər yaxşıdır. Qeyri-regional ölkələr bu sahəyə müdaxilə etməməlidir”. İranlı spiker ”Qafqaz regionunda sərhəddə heç bir geosiyasi dəyişikliyi qəbul etmirik” deyib. Qafarova isə öz növbəsində vurğulayıb ki, iki ölkəni təkcə coğrafiya və sərhədlərin yaxınlığı birləşdirmir: ”Biz müsəlmanıq və İran əhalisinin əksəriyyəti Azərbaycan dilində danışır. İran və Azərbaycan arasında münasibətlərə təsir edən




müxtəlif məsələlər var. Biz sülhü və təhlükəsizliyi dəstəkləyirik və regionda sabitlik istəyirik”.

**Politoloq Əlimusa İbrahmov deyib ki, spiker Sahibə Qafarova iranlı həmkarının layiqli cavabını verib. Ekspert bildirib ki, Azərbaycan Parlamentinin sədri iranlı tərəf-müqabilini diqqətlə dinləyib və onun çıxışında toxunduğu məsələlərə öz münasibətini və Azərbaycan hökumətinin mövqeyini bildirib:** ”Sahibə xanım İranın məhz nədən Ermənistanla sərhədlərin dəyişilməsinin İran tərəfindən qəbuledilməz olduğunun, Azərbaycanın İranla 30 il ərzində pozulmuş sərhədlərinin qəbuledilən olduğunun səbəblərini soruşub. Təbii ki, iranlı spiker Sahibə Qafarovanın sualları qarşısında cavab verə bilməyib. S.Qafarovanın iranlı spikeri çətin vəziyyətə salan təkcə bu sualı olmayıb. Sahibə xanımın ”Biz müsəlmanıq və İran əhalisinin əksər hissəsi Azərbaycan dilində danışır” deməsi bütün İran siyasətçilərinin Azərbaycana qarşı irəli sürdüyü yersiz iddia və böhtanların ən qısa və lokonik cavabı idi. Bu cümlə İranın Ermənistanın arxasında dayanmasının nə qədər utancverici və iyrənc olduğunu, molla rejiminin müsəlmanları deyil, işğalçı və separatçıları dəstəkləməsinə ən ağır ittiham idi. Spikerimiz İran rejiminin iç üzünü çox ustalıqla açıb göstərdi. Cümlənin növbəti hissəsində isə İran tərəfinə diplomatik dillə xəbərdarlıq var. İran spikerinə ölkəsinin əhalisinin yarıdan çoxunun Azərbaycan dilində danışmasının xatırladılması həm də xəbərdarlıqdır.

Ümid edirik ki, bu və bu qəbildən olan xəbərdarlıqlardan İran rejimi nəhayət nəticə çıxararaq, Azərbaycanla səmimi münasibətlərə başlayacaq”.

**İsmayıl**



# Rusiya hərbi kontingentinin yük maşınları yoxlanmalıdır

**Qarabağdakı qızıl və mis yataqlarında monitorinq tələbi ilə bir aydır davam edən aksiyanın müsbət nəticələri var. Ermənistan hakimiyyətinə, erməni separatçılarına, Rusiyaya və Qərbə göstərdik ki, Ermənistanla Qarabağı birləşdirən yolu nəzarətə götürmək hüququmuz var. Ancaq hadisələrin gedişatı göstərir ki, bu, kifayət etməyəcək, Laçın yolundakı hədəflərimizi böyütmək məcburiyyətindəyik.**

Laçın yolunda sərhəd və gömrük xidmətinin yaradılmasına keçid edilməsi zərurəti yaranıb

Rusiya hərbi kontingentinə məxsus yük maşınları Şuşa-Xankəndi yolundan sərbəst şəkildə keçərək, Qarabağdan Ermənistana, Ermənistandan Qarabağa maneəsiz hərəkət edirlər. Bəzən bir gün ərzində 25 nəqliyyat vasitəsi yoldan maneəsiz şəkildə keçid edir. Azərbaycanın siyasi və ekspert dairələrində bir sualın aktuallığı artıb. Rusiya hərbi kontingentinin nəqliyyat vasitələrində erməni separatçılarına silah, sursat və mina daşına bilərmi?

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, bu suala birmənalı şəkildə ”xeyr, belə yüklər daşına bilməz” cavabını vermək mümkün deyil. Çünki həmin nəqliyyat vasitələrində nələrin daşındığı barədə dəqiq məlumat yoxdur:** ”Rusiya hərbi kontingentinin komandanlığı yalandan deyə bilər ki, nəqliyyat vasitələrində yalnız onlar üçün lazımi vasitələr daşınır. Ancaq o nə yükdür ki, bir gün ərzində Ermənistandan Qarabağa 25 nəqliyyat vasitəsi keçib? Həmin nəqliyyat vasitələrində erməni separatçılarına silah, sursat və mina daşındığını vurğulamaq çətindir, ancaq tərsini söyləmək də mümkün deyil. Məsələ burasındadır ki, Rusiya hərbi kontingentinin yolda postlarının mövcud olduğu iki il müddətində Ermənistandan Qarabağa silah, sursat və mina daşınıb. Rusiyalı hərbçilər bunun qarşısını almayıblar. Əksinə, Xankəndidə separatçılarla əl-ələ verərək əməkdaşlıq ediblər. Belə olan halda Rusiya hərbi kontingentinin erməni separatçılarından üz döndərdiyi inandırıcı deyil”.

**E.Şahinoğlunun qənaətincə, separatçılar rusiyalı hərbçilərin psixologiyasını yaxşı mənimsəyiblər:** ”Ermənilərin separatçılığa başladıqları 1988-ci ildən bu yana rusiyalı hərbçiləri pulla ələ almaq təcrübələri var. Tutaq ki, Rusiya hərbi kontingentinin komandanı Andrey Volkov nəqliyyat vasitələrində erməni separatçılarına silah daşınmasının əleyhinədir. Erməni separatçıları Rusiya hərbi kontingentinin aşağı rütbəli hərbçilərinə hər ay bir neçə min dollar ödəməklə nəqliyyat vasitələrinin içərisində silah daşıya bilərlər. Şübhələrə son qoymaq üçün etirazın davamı kimi Laçın yolunda sərhəd və gömrük xidmətinin yaradılmasına keçid edilməsi zərurəti yaranıb. Bundan sonra istənilən yük yoxlanılacaq və separatçılara silah və sursat daşınması imkanı ortadan qaldırılacaq”.

**İsmayıl Qocayev**

# Ruslar Ermənistanı tərk etməyəcək

## Bunun üçün gərək İrəvan Rusiyaya olan borclarını qaytarsın



“Bu ölkənin bütün həyati sektorları Rusiyaya məxsus şirkətlər tərəfindən ya satın alınıb, ya da uzunmüddətli icarədədir”

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiyanın Ermənistandakı hərbi mövcudluğunun İrəvan üçün təhlükəsizlik təhdidləri yaratdığını bildirib. Paşinyan növbəti dəfə Moskvanı ittiham edərək, Kremlin regionda baş verənlərə, xüsusən Laçın yolundakı aksiyaya susqunluq nümayiş etdirməsindən gileylənib:**

”Rusiyalı həmkarlarımızın diqqətini bu fakta cəlb edirik. Onların susqunluğu fonunda belə çıxır ki, Rusiyanın Ermənistanda hərbi mövcudluğu nəinki respublikanın təhlükəsizliyinə təminat vermir, əksinə, onun təhlükəsizliyinə təhdiddir”. Baş nazir qeyd edib ki, Moskva öhdəliklərini yerinə yetirə bilmir: ”Əgər Rusiya obyektiv və ya subyektiv səbəblərdən öhdəlikləri yerinə yetirə bilmirsə, Qarabağdakı sülhməramlı qüvvələrinə beynəlxalq mandat vermək üçün, yaxud yeni çoxmillətli sülhməramlı missiyanı Qarabağa göndərmək barədə BMT TŞ-yə müraciət etməlidir”.

**Paşinyanın açıqlamasını ”Şərq”ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev dünyada yaşayan olaylara diqqət çəkib. Ekspert bildirib ki, qlobal problemlərlə yanaşı, 2023-cü ilə Ukrayna-Rusiya genişmiqyası müharibəsi ilə daxil olduq:** ”Dünyanın qayğıları artıb. Suriya, İraq və Əfqanıstanda sülh təmin olunmayıb. Fələstin problemi olduğu kimi qalır. Azərbaycan-Ermənistan arasında, daha doğrusu, Qarabağda problemin həll olunduğu sazişlə təsbit edilsək də, reallıq odur ki, problem qalmaqdadır. Bunu etiraf etməliyik. Məhz bizim razılığımızla bölgəyə yerləşdirilən Rusiya hərbi kontingenti üzərinə düşən öhdəliyi yerinə yetirmir. Eyni ittihamla Ermənistan tərəfi də çıxış edir. Əslində belə bir vəziyyət və mövcud durum Rusiya tərəfindən növbəti status-kvonun saxlanmasına cəhddir. Ermənistan çox gözəl anlayır ki, Azərbaycan Qarabağ ermənilərinə heç bir hüquqi status tanımayacaq. Ona görə də Qarabağda vəziyyət İrəvanı qismən qane edir. Lakin Laçın yolundakı aksiyanın davam etməsi və gələcəkdə sərhəd xidmətinin yaradılması barədə müzakirələr erməni tərəfini narahat etməyə bilməzdi. Ancaq Paşinyanın, hökumət üzvlərinin Rusiya ordusunun Ermənistandan çıxarılması tələbi riyakarlıqdır”.

*V.Əfəndiyev hesab edir ki, rusların Gümrü hərbi bazasını tərk etməsi Ermənistanın asılılığını azaltmayacaq:* ”Ermənistan Rusiyaya olan borclarını qaytarmalıdır. Bu ölkənin bütün həyati sektorları Rusiyaya məxsus şirkətlər tərəfindən ya satın alınıb, ya da uzunmüddətli icarədədir. Rusların bölgəni tərk etməsi iki halda mümkün ola bilər. Ya Rusiya Ukrayna qarşısında tam məğlub olaraq parçalanmalıdır ki, indiki şəraitdə bu, mümkün görünmür. Ya da hansısa superdövlət Rusiyanın borclarını qarşılamaqla Ermənistanı himayəsinə götürür. Ən böyük ehtimal həmin dövlət Fransa ola bilər. Amma fransızların erməniləri qaza gətirməsinə və bu ölkədə böyük diasporaları olmasına baxmayaraq, rəsmi Paris belə bir addım atmaz. Çünki bölgədə Türkiyə reallığı da var. İrəvan hökuməti dərk etməlidir ki, Türkiyə və Azərbaycanla münasibətləri tam normallaşdırmayana qədər Rusiyaya qarşı çıxmaq gücündə olmayacaq. Rusiyanın ermənilərin bütün etirazlarına rəğmən, susqun və təmkinli davranması Kremlin reallıqları bilməsi səbəbindəndir”.

**İsmayıl Qocayev**

# Paşinyan Putinə meydan oxudu

## Ermənistan KTMT və MDB-dən çıxa bilər

**Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxması üçün prosesə start verilib. Baş nazir Nikol Paşinyan ölkəsinin KTMT təlimlərinə ev sahibliyi etməyəcəyini bildirib. Onun sözlərinə görə, Ermənistanda hazırkı vəziyyətdə KTMT-nin ”Sarsılmaz qardaşlıq” təlimlərinin keçirilməsi məqsədəuyğun deyil. Xatırladaq ki, əvvəlki dönəmlərdə Ermənistan Baş naziri Nikol Paşinyan müxtəlif vasitələrdən istifadə edərək KTMT-dən Azərbaycana qarşı istifadə etməyə cəhd göstərmişdi.**



Belə görünür, Ermənistan Moskvanı şantaj etməklə Rusiyanı Laçın yolundakı aksiyaya qarşı addım atmağa sövq etdirmək istəyir

Paşinyan Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlılarını tənqid, hətta təhdid etmişdi. O, Rusiya sülhməramlılarının fəaliyyətinin qənaətbəxş olmadığını əsas gətirərək Qarabağa digər beynəlxalq təşkilatların, BMT-nin sülhməramlılarının gətirilməsini istəmişdi. Son hadisələr onu göstərir ki, Paşinyan hakimiyyəti KTMT-dən çıxmaq və anti-Rusiya mövqeyini daha da artırır. Rusiya İrəvanın KTMT təlimlərini öz ərazisində keçirməsindən imtina etməsinə münasibət bildirib. Kremlin mətbuat katibi Dmitri Peskov deyib ki, Rusiya İrəvanın bu il KTMT təlimləri keçirməkdən imtina etməsi ilə bağlı Ermənistanın mövqeyini aydınlaşdıracaq: ”Düşünürəm ki, KTMT xətti ilə həmkarlar əlaqə saxlayacaq, Ermənistanın mövqeyinin təfərrüatlarına aydınlıq gətirəcəklər. Hər halda Ermənistan bizim çox yaxın müttəfiqimizdir, biz, o cümlədən indi çox çətin olan məsələlərlə bağlı dialoqu davam etdirəcəyik”.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə açıqlamasında bildirib ki, Paşinyan Rusiyaya qarşı siyasi cəbhə açıb.** Analitik vurğulayıb ki, Paşinyanın KTMT yekun Bəyannaməsinə imza atmaması, təlimlərindən imtina etməsi və Gümrüdə Rusiyanın 102-ci hərbi bazası əleyhinə formalaşdırdığı etiraz aksiyaları iki ölkə arasında siyasi böhranı dərinləşdirəcək: ”Paşinyan Rusiya sülhməramlı qüvvələrinin səlahiyyət müddətinin uzadılması sənədinə imza atmaya bilər. Onun əsas siyasi kursu Rusiyanı Ermənistandan tamamilə çıxartmaqdır. Rusiyanın Ukraynada hərbi-siyasi uğursuzluğu baş nazirin mövqelərini gücləndirir və Kremlə qarşı demarşa gətirib çıxarır. Paşinyanın mətbuat konfransında səsləndirdiyi bəyanatlardan Moskvaya münasibət aydın olur”.

**Analitik Asif Nərimanlı da vurğulayıb ki, Paşinyan Rusiyaya açıq şəkildə ”KTMT və MDB-dən çıxa, 102-ci hərbi bazanı bağlaya biləcəklərinin” mesajını verdi:** ”Nikol mesajlarının çatdırılmasında özünəməxsus formatdan istifadə edir. Əvvəlcə ata biləcəkləri addımlar haqda ictimai rəy yaradır, daha sonra bundan bəhs edir. Ermənistan KTMT və MDB-dən çıxa bilər. Nikol buna o haqda iddianı təkzib üzərindən işarə vurdu. 102-ci hərbi bazanın gələcəyi sual altındadır. Gümrüdəki baza ətrafında ”etiraz aksiyası” təşkil olundu, ardınca Paşinyan məsələni gündəmə gətirdi. İrəvan KTMT-yə qarşı ilk həmləsini etdi. Belə görünür, Ermənistan Moskvanı şantaj etməklə KTMT-nin sərhəd məsələsinə müdaxiləsinə nail olmaq, Rusiyanı Laçın yolundakı aksiyaya qarşı addım atmağa sövq etdirmək, ”müttəfiqləri”ni Bakıya qarşı birləşdirmək istəyir. Lakin İrəvan da anlayır ki, KTMT-nin Bakıya qarşı cəbhədə yer alması, delimitasiya olunmayan sərhəddə baş verənlərə görə Azərbaycana qarşı praktik addımların atılması, eləcə də Laçın yolundakı aksiyanın hədəfinə nail olmadan dayanması ehtimalı azdır. Bu baxımdan Paşinyan baş verənlərdən Rusiyanın təsirini minimallaşdırmaq və Moskvadan uzaqlaşmaq üçün istifadə edir”.

**İsmayıl Qocayev**

**Yağışlı və qarlı havalarda Bakı yollarında vəziyyət acınacaqlı hal alır. Yollardakı su gölməçələri piyadalar üçün problemə çevrilir. Elə sürücülər var ki, yol kənarında dayanan piyadaları belə nəzərə almır. Əksinə, sürət həddini dah da yüksəldərək, onların üst-başlarını batırmağa nail olurlar.**



# 40 manat az pul deyil

## Piyadalara su sıçradan sürücülər cərimələnəcək

Sürücülər isə iddia edir ki, bu onların yox, paytaxt yollarını təmir etməyə məsul qurumların günahıdır. Elə yollar var ki, kələ-kötür, dağınıq haldadır. Yağıntılı havalarda da təbii olaraq bu yollar keçilməz vəziyyətdə olur. Üstəlik, əksər küçələr doğru-düzgün asfaltlanmadığı və su-kanalizasiya sistemi lazımi qaydada quraşdırılmadığı üçün yağışlı havalarda yollarda sel axır. İstər-istəməz, belə yollarda piyadaların üzərinə su sıçrayır.

Maraqlıdır, belə halların qarşısını almaqdan ötrü sürücülərə hansı cəza tətbiq edilir?

Hazırda respublikanın bəzi bölgələrində və paytaxtda qarlı hava şəraitinin hökm sürdüyünü vurğulayan Baş DYP İdarəsinin şöbə rəisi, polis mayoru Rövşən Tağıyev piyadalara su sıçradan sürücülərə xəbərdarlıq edib. Qarlı havalarda nəqliyyat vasitələrinin sürüşmə ehtimalının artmasının yol-nəqliyyat hadisəsinin baş verməsinə real zəmin yaratdığını qeyd edən şöbə rəisi hesab edir ki, mövcud hava şəraitini nəzərə alaraq, hər bir hərəkət iştirakçısı yollarda daha məsuliyyətli olmalıdır: ”Xüsusilə, sürücülər sürət həddini minimuma endirməli, ara məsafəsini normadan artıq saxlamalı, avtomobilin şüşəsilənlərinin, işıq cihazlarının saz vəziyyətdə olmasına, eləcə də şinlərin mövsümə uyğun olmasına və əyləc sisteminin sazlığına əmin olmalı, qar sularının yollarda yaratdığı gölməçələrdən keçərkən ehtiyatlı olmalı, ətrafdakı insanları nəzərə almalıdırlar. Unutmaq olmaz ki, su və ya palçığın yolda piyadalara, binalara və nəqliyyat vasitələrinə qəsdən sıçradılması qeyri-etik davranış olmaqla yanaşı, həm də inzibati məsuliyyət yaradır. Belə sürücülər aşkar edildiyi təqdirdə barələrində İXM-nin 342.1.5 maddəsi ilə inzibati tənbeh tədbirləri tətbiq ediləcək. Nəzərə almaq lazımdır ki, şaxtalı havada piyadaların suyla islanması xoşagəlməz bir hal yaradır. Bütün sürücülər yollarda hərəkət edərkən piyadaları da nəzərə almalıdırlar. Əlverişsiz hava şəraitinin piyadaların hərəkətində də bir sıra çətinliklər yaratdığını qeyd etməklə yanaşı, təhlükəsizlik baxımından onları da məsuliyyətli olmağa çağırır, tələskənliyə yol verməməyi, yollarda avtomobilin olmadığından tam əmin olduqdan sonra yolu qarşıdan qarşıya keçməyi tövsiyə edirik”.

**Nəqliyyat eksperti Eldəniz Cəfərovun ”Şərq”ə açıqlamasına görə, inzibati tənbeh tədbiri elə cərimə deməkdir:** ”Yollarda piyadalara və digər nəqliyyat vasitələrinə qəsdən su və ya palçıq sıçradılmasına görə inzibati məsuliyyət nəzərdə tutulub. İnzibati Xətalar Məcəlləsinin 342.1.5-ci maddəsinə əsasən, su və ya palçığın yolda piyadalara, binalara və nəqliyyat vasitələrinə qəsdən sıçradan sürücülər 40 AZN məbləğində cərimə olunur”.

Ekspertin sözlərinə görə, qanunun tələbi olsa da bu məsələdə sürücülərin etirazı da əsassız deyil. Yollarda vəziyyət ürəkaçan deyil. Xüsusən də yağışlı və qarlı havalarda nəqliyyat infrastrukturu bərbad hala düşür. Ancaq bu, sürücülərə ixtiyar vermir ki, yoldan keçənin üstünə su, palçıq sıçratsın.

Əgər yol çuxurlarla doludursa, kələ-kötürdürsə, yol kənarında dayanan, yol keçən piyadanın üzərinə suyun sıçraması üçün sürücülər sürəti azaltmalıdır.

**Şəymən**

# Kılıçdaroğlu söz verdi

## “Əcnəbilərə yaşayış evlərinin satışını qadağan edəcəyik”



**CHP sədri Kamal Kılıçdaroğlu tviter hesabından mənzil və kirayə qiymətlərinin artması ilə bağlı açıqlama verib.**

*”Şərq” xəbər verir ki, ev sahibi olmağın getdikcə çətinləşdiyini vurğulayan CHP lideri paylaşımında fikirlərini belə əsaslandırıb:* ”Kirayə haqları da getdikcə artır. Vətəndaşlarımız öz vətənlərində təqib olunur. 6 aydan sonra 5 il müddətinə əcnəbilərə yaşayış evlərinin satışına qadağa qoyacağıq. Qiymət balansı olana qədər qadağa götürülməyəcək. Bizim prioritetimiz öz insanlarımızdır”.

**Turan**

# Türkiyə Ukraynanın sülhlə bağlı təkliflərini dəstəkləyir

## “Müharibəyə baxmayaraq, diplomatiyanın da nəticələrini görürük”

**Türkiyə Ukraynanın sülhlə bağlı təkliflərini dəstəkləyir. Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Cənubi Afrika Respublikasından olan həmkarı Naledi Pandor ilə birgə mətbuat konfransı zamanı bildirib.**

O qeyd edib ki, Türkiyə bu danışıqlar planının bir neçə bəndi üzrə prosesə başçılıq etmək istəyir.

”Atəşkəs rejiminin əldə olunması istiqamətində addımlarımızı davam etdiririk. Hədəfimiz daimi sülhə nail olmaqdır. Müharibəyə baxmayaraq, diplomatiyanın da nəticələrini görürük”, - deyə M.Çavuşoğlu əlavə edib.

## Güneyin səsi



# "Azad qardaşım var, onunla xoşam"

### Şair Söhrab Tahir həmişə güneyli-quzeyli torpaqlarımızın, xalqımızın ağrı və qayğıları ilə nəfəs alıb





**Güney Azərbaycan, bölünmüş vətən mövzusu əsrlər boyu ədəbiyyatımızın əsas motivini təşkil edib. Bu yolda yorulmadan mübarizə aparan, Cənubi Azərbaycanda milli azadlıq yolunda çarpışan şairlərdən biri də özünəməxsus poetik dünyası ilə seçilən Söhrab Tahirdir. Bir çox cənublu soydaşlarımız kimi onun da taleyi dövrün, zamanın haqsızlıqlarına tuş gəlib. Doğulduğu yurddan, əzizlərindən ayrı düşən şair ömrünün sonuna kimi vüsal həsrəti çəkib:**

**Mənim qollarımı iynə-sap edin**
**Tikin Astaranı biri-birinə.**
**Çayları, yolları iynə-sap edin**
**Tikin Culfaları biri-birinə.**

"Mən od oğlu - Azəriyəm" deyən S.Tahirin yaradıcılığı sarsılmaz inqilabi ruh, aydın milli təfəkkür işığı, coşqun vətənpərvərlik, azadlıq düşmənlərinə alovlu nifrət və humanizm üzərində köklənib.

Şirin dil, dolğun təşbehər, mənalı, oynaq xalq ifadələri, vətənpərvərlik hisslərinin ümumbəşəri ideyalarla qaynaqlanması Söhrab Tahir yaradıcılığının qiymətli xüsusiyyətlərindəndir. 1947-1951-ci illərdə onun bir sıra şeir və hekayələri müxtəlif almanax və toplulara, o cümlədən "Cənubi Azərbaycan antologiyası"na daxil edilib.

"Çöpü də ikiyə bölmərəm daha" şeirindən dillər əzbəri olmuş misralar Söhrab Tahir yaradıcılığının rəmzinə və himninə çevrilib:

**Azad qardaşım var, onunla xoşam**
**Mən gərək, sahili sahilə qoşam.**
**İki bölünməkdən elə qorxmuşam,**
**Çöpü də ikiyə bölmərəm daha.**

Şair güneyli-quzeyli torpaqlarımızın, xalqımızın ağrı və qayğıları ilə nəfəs almış və dönə-dönə ayrılıq və birlik, multikultural dəyərlər mövzusuna müraciət edib:

**İki vətən olub bir xalqımızdan,**
**İki sərhəd olub vətənə bir çay.**
**Elə gülməlisən, danışmalısan,**
**Nə o tay incisin, nə də ki, bu tay.**

Bir ömür boyu Güneylə Quzeyin birləşəcəyinə inam hissi ilə yaşayan şair vətəninin gələcək taleyi ilə təsəlli tapıb:

**Ömrümdən qürbətlər, yadlar qovulsun,**
**Keçmişim yiyəsiz qaldı, qoy olsun!..**
**Ancaq gələcəyim mənimki olsun,**
**Mən onu ömrümdən silmərəm daha!**

Şairin Vətən məhəbbətini əks etdirən "Ərdəbil", "Təbrizim", "Savalanım", "Ərk qalası", "Mərənd" və s. şeirlərində yurd sevgisinin yaratdığı bir sıra məqamları görür, müəllifin vətəndaşlıq hisslərinin qədərsizliyinə, əbədiliyinə şahid olursan.

S.Tahirin "Azərbaycan" poeması Azərbaycan xalqının varlığını danan, onun qəhrəman keçmişinə, tarixinə kölgə salmaq istəyən şovinistlərə cavab olaraq yazılıb. Epik janrda yaranan əsərlərin zirvəsində dayanan "Azərbaycan" poemasında Şair xalqının gələcəyinə nikbin baxışını bu cür ifadə edib:

**Yüz il də keçərsə**
**bu ayrılıqdan,**
**Öz birlik haqqını**
**bu xalq alacaq.**
**Bir gün mənim xalqım birləşən zaman,**
**Dünyada ən zəngin bir xalq olacaq.**

Şairin "Qardaş torpağında", "Sevgi əfsanəsi", "Valeh qəzəl oxuyurdu", "Yaralı xatirələr", "Anasız", "Sevgi yağışı", "Səttarxan", "Vətənlə sevgi arasında", "Yaxşılıq", "Bir il azadlıqda", "Fədai", "Tale ulduzu" və s. poemaları klassik Azərbaycan şeirinin mütərəqqi ənənələri ilə qidalanmış və cağdaş şeirimizin ən gözəl, ən qabaqcıl nümunələri səviyyəsinədək yüksəlib.

Həm də istedadlı nasir olan S.Tahirin "Kəniz qızın hekayəsi" mübarizə ruhu ilə aşılanmış şairin nəsr janrında yazdığı ilk qələm təcrübəsidir. S.Tahir ilk nəsr əsərlərini "Dasqın" təxəllüsü ilə yazıb. Dövri mətbuatda bir-birinin ardınca çap olunan "Şəlalə və qaya", "Ağac", "Yol" və başqa hekayələri XX əsrin ikinci yarısında yaranan Azərbaycan nəsrinə yeni nəfəs, yeni mövzu gətirib. "Dəniz nəğmələri", "Ölümdən güclü, həyatdan uca", "İşsizlərin içində", "Təbiət danışır", "Qəribə adamlar", "Qardaş torpağında", "Kaka-həmə" və digərləri müəllifin şahlıq istibdadına qarşı mübarizə yolunda şəhid, məhbus və sürgün olmuş yoldaşlarına ithaf edib.

Ədib "İki sevgi, iki güllə" əsərini isə 1941-ci ildə Güney Azərbaycanda baş verən hadisələrə, xüsusilə həmin dövrdə aparılan bəzi hərbi-kəşfiyyat əməliyyatlarına həsr edib.

Onun "Sonuncu şah" romanı İran tarixinin demək olar ki, yarım əsrlik bir dövrünü və həmin müddət ərzində baş verən ən mühüm ictimai-siyasi hadisələri əhatə edir. Ümumiyyətlə, azadlıq fədailərinin gənclik yaşlarından başlayaraq mübarizə yollarını izləyən müəllif zindanlardan, məhbəslərdən, sürgünlərdən keçən mübarizlərin azadlığın şirin dadını duyana qədərki dövr olmaqla xalqımızın mübarizə ruhunun epik təsvirini qələmə almaqda çox mahir ustad olduğunu irili-xırdalı nəsr əsərləri ilə bir daha sübut edib.

**Xalq şairi Sabir Rüstəmxanlının da dediyi kimi, S.Tahir həm nasir, həm də şair kimi bütöv Azərbaycanın min ildə yetirdiyi ən nadir qələm sahiblərindən biri olub.** S.Rüstəmxanlı müsahibələrinin birində qeyd edib ki, Söhrab Tahir 1945-1946-cı ildə Azərbaycan milli hökumətinin Bakıya göndərdiyi və hərbiçi kimi yetişməsini arzuladığı gənclərdən biri idi. Amma tale, zaman dəyişdi, o milli hökumət yıxıldı. Bundan sonra Söhrab Tahir ölkəsinə qayıda bilmədi, Azərbaycanda qalıb, bütün taleyini Bakıya bağladı: "Burada Güney-Quzey Azərbaycan şairlərinin, yazıçılarının yaxın silahdaşlarından birinə çevrildi. Bizim nəslin nümayəndələri "Əmi" deyirdi. Hətta Məmməd Araz da ona "Əmi" deyirdi. Ona öz yaşıdları da hörmət əlaməti olaraq elə müraciət edirdilər. Söhrab Tahir gecə-gündüz, nəfəs dərmədən işləyən bir qələm əhli idi. 19 roman yazıb, 50-dən artıq poema, 100-lərlə şeirin müəllifidir. Bundan əlavə 70 min misradan ibarət olan monimental "Ata" poemasının müəllifidir. Mən son görüşümüzdə ona dedim ki, "Ata" "Şahnamə"dən də böyükdür.

Söhrab Tahirin həm də Cənubi Azərbaycan ədəbiyyatının, daha doğrusu, Cənubi Azərbaycan mövzusunun Azərbaycanda geniş yayılmasında, milli faciəmizin gənclər arasında təbliğində, tantımında, dərkində misilsiz xidməti var. Vaxtıykən mən ona və Balaş Azəroğluna həsr olunmuş bir poema yazmışdım. Orada qeyd etmişdim:

**Başında ağ saç gördüm,**
**Amandır, Söhrab əmi,**
**Belə vaxtsız tələsmə saçları ağartmağa,**

**Ömürdən möhlət gərək,**
**Arzulara çatmağa...**

**Pasportun rəngi ayrı,**
**Qəlbimizin qanı bir!**
**Qanı, ruhu, tarixi,**
**Kağız ayıran deyil,**
**Saziş ayıran deyil!**

Söhrab Tahir əslində, mənim gözümdə dünyada azadlıq və öz millətinin istiqlalı uğrunda mübarizə aparan ən nəhəng ədəbiyyatçıları sırasındadır. O, mənim yaxın dostum idi. Bütöv Azərbaycanı iki-üç adamla dəfələrlə dolaşmışıq. Onların biri Söhrab Tahir idi. Bu dərdləri dəfələrlə ikilikdə müzakirə etmişik.

*Qeyd edək ki, Xalq şairi Söhrab Əbülfəz oğlu Tahir 1926-cı il mayın 27-də İranın Astara şəhərində sənətkar ailəsində anadan olub. "Səadət" və "Şahpur" məktəblərində 9-cu sinfədək təhsil almış, ailə vəziyyətinin ağırlığı üzündən atası ilə "İran-İngilis neft şirkəti"ndə işləməyə məcbur olub.*

*Sovet Ordusunun İrana daxil olmasından sonra xalq hərəkatında fəal iştirak edib. 1946-cı ildə Bakıya təhsil almağa göndərilib. 1950-ci ildə Bakı Tibb Məktəbində stomatoloq və feldşerlik ixtisası alıb. O, 1952-1957-ci illərdə ADU-nun filologiya fakültəsində oxuyub, 1959-1961-ci illərdə Moskvada Maksim Qorki adına Ali Ədəbiyyat kurslarında mudavim olub. 1962-1966-cı illərdə ADF-nin Bakı komitəsində birinci katib, "Azərbaycan" qəzeti və jurnalı redaksiyalarında bədii şöbələrdə müdir, "Səhər" ədəbi-tarixi jurnalında baş redaktor müavini, 1984-cü ildən "Azərbaycan" jurnalında redaktor olub.*

*Azərbaycan Yazıçılar Birliyi i darə heyətinin, "Literaturnı Azerbaydjan" jurnalı redaksiya heyətinin, "Yazıçı" nəşriyyatının bədii şurasının, Azərbaycan Ədəbiyyat Fondu İdarə Heyətinin üzvü, SSRİ ədəbiyyat fondu plenumunun üzvü, Azərbaycan Yazıçılar Birliyi şeir şurasının sədri (1986-1991) olub. 1991-ci ildə Bədii ədəbiyyatı təbliğat bürosu idarə heyətinin sədri təyin edilib. İnqilabi, ədəbi-ictimai fəaliyyətinə görə Təbrizdə "21 Azər" medalı və bir sıra başqa medallarla təltif olunub.*

*2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülüb. Xalq şairi 4 may 2016-cı ildə dünyasını dəyişib.*

**Şəymən Bayramova**

# Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi hazırlanır

### İşğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işləri idman sahəsindən də yan keçməyib






**"2022-ci il Azərbaycanda idmanın inkişafı və bu sahədə əldə etdiyimiz nailiyyətlər baxımından uğurlu olub". Bu barədə Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev deyib. Vitse-spiker bildirib ki, bu inkişaf və nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi nüfuzunun möhkəmlənməsinə xidmət edir:** "2022-ci ilin idman yekunlarına həsr olunan tədbirdə iştirak edən Prezident, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev bildirdi ki, "keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu". İdmançılarımızın beynəlxalq yarışlarda 800-dən çox medal, o cümlədən 300-ə qədər qızıl medal qazanması bu dinamik inkişafın idman sahəsini də əhatə etdiyini əyani surətdə təsdiq edir. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq səviyyəli idman tədbirlərinə ev sahibliyi etmiş paytaxt Bakıda və bölgələrdə çoxlu sayda olimpiya mərkəzləri, idman kompleksləri inşa edilib. Gəncə şəhərində Azərbaycanın ən böyük idman sarayı inşa olunur. Bütün bunlar Azərbaycanda idmanın kütləviliyinə nail olmaq və onun inkişafı üçün geniş imkanların yaradıldığının göstəricisidir. İşğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən yenidənqurma işləri nəticəsində bu proses daha geniş miqyas alacaq. Qarabağ və Şərqi Zəngəzurda start verilmiş nəhəng bərpa və yenidənqurma işlərinin ilkin nəticələri artıq göz önündədir. Füzuli və Zəngilanda beynəlxalq hava limanlarının inşası, Şuşaya Zəfər yolunun çəkilişi və Şuşada mədəniyyət abidələrinin bərpası, Zəngilan rayonunda inşa edilmiş "ağıllı kənd"ə Ağalı kəndinin doğma sakinlərinin qayıdışı bunun bariz nümunəsidir. İşğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işləri idman sahəsindən də yan keçməyib".

***A.Əliyev qeyd edib ki, artıq bu ərazilərdə müasir idman komplekslərinin inşası istiqamətində işlər başlayıb:*** "Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi hazırlanır. Yenidən qurulacaq bu stadionun yanında Olimpiya İdman Kompleksi yaradılacaq. Qeyd edilməlidir ki, 2022-ci ildə Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyulub. İşğaldan azad olunmuş digər kənd, rayon və şəhərlərimizdə də idman obyektlərinin yaradılması planlaşdırılır. İdmançılarımızın və idman mütəxəssislərimizin sosial problemlərinin həlli, onların məişət şəraitinin yaxşılaşdırılması hər zaman dövlətimizin diqqət mərkəzində olub: "2022-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə Prezident İlham Əliyevin yüksək nəticələr əldə etmiş bir qrup idmançı və idman mütəxəssislərini mükafatlandırması bu diqqət və qayğının daha bir göstəricisidir".

**İsmayıl**

# Aqşin Yenisey erməni cəmiyyətinə müraciət edəcək

### "Mən heç bilmirəm şeirimin başına nə cür oyun açıblar!?"



**"Ermənistanda şeirlərimin çap olunması mənim üçün gözlənilməz və arzuolunmaz idi".**

**Bu sözləri İctimai Televiziyanın efirində yayımlanan "3D" verilişində qonaq olan şair Aqşin Yenisey deyib.**

Verilişin şərti aparıcısı Dadaş Dadaşlinskinin suallarını cavablandıran şair hesab edir ki, müəllifinin xəbəri olmadan onun şeirlərini tərcümə və çap etməyin, hətta antologiyaya salmağın özü dünyəvi dəyərlərə hörmətsizlikdir: "Deyilənə görə, erməni yazarları, bizim şeirlərimizi öz dillərinə tərcümə edərək antologiya halında çap edib etdirib. Bəlkə də heç yazarlar deyil, qeyri-hökumət təşkilatları özlərini Avropaya sülhpərvər göstərmək üçün belə bir addım atıblar. Sözün açığı, məqsədləri nə olub, bilmirəm. Ancaq bu barədə bir yazı ilə erməni cəmiyyətinə müraciət etməyi düşünürəm. Mənim şeirlərimi əgər erməni müəlliflər özümə demədən internetdən götürüb çap ediblərsə, bu, etik deyil. Ən azı bu gün Azərbaycanla Ermənistan arasındakı münasibətləri nəzərə alsaq, bu dəyərlidir. Biz orduları sərhəddə üz-üzə dayanan iki düşmən ölkəyik. Mən heç bilmirəm erməni hansı şeirimi çap edib, tərcüməçiləri misralarımın başına nə cür oyun açıblar!? Bəlkə də o şeirlərimi elə formada tərcümə ediblər ki, növbəti nəsil məni söyəcək ki, döyüşlərin getdiyi, əsgərlərimizin şəhid olduğu bir vaxtda siz görün nələr yazmısınız!? Axı o antologiya bir gün Qarabağda ermənilər tərəfindən yaxınları qətlə yetirilən azərbaycanlıların əlinə keçsə, onların ittihamlarına kim cavab verəcək?

Müəllif olaraq mənim nə o şeirdən, nə də orada çap olunacağından xəbərim olub. Həmin antologiyanı Azərbaycana gətirməyin hüquqi yollarını bilmirəm. Amma bu antologiyaya görə gələcəyimizin təhlükə altına düşəcəyindən ehtiyat edirəm. Bir yazıçı olaraq xalqımın qüsurlarını, problemlərini şeirlərimdə, yazılarımda ifadə etmək mənim borcumdur. Məqsədim isə həmin problemlərə diqqət çəkmək və həllinə nail olmaqdır. Ancaq mən indi bilmirəm erməniləri hansı şeirimi, nə məqsədlə o antologiyada çap ediblər".

**Şəymən**

# FHN ekspertin fikirləri ilə razılaşmır

### Qaz qurğularının və avadanlıqlarının texniki müayinəsi FHN tərəfindən deyil, qazpaylayıcı təşkilatlar tərəfindən həyata keçirilməlidir




**"Şərq" qəzetinin 10 yanvar 2023-cü il tarixli 3-cü nömrəsində dərc edilən "Səhlənkarlıq baş alıb gedir" sərlövhəli yazıda kommunal xidmətlər üzrə mütəxəssis Nüsrət Qasımovdan alınan açıqlamada əhalinin dəm qazı təhlükəsizliyinə cavabdeh orqan olaraq Fövqəladə Hallar Nazirliyi (FHN) göstərilib.**

Nazirliyin mətbuat xidmətinin əməkdaşları isə ekspertin fikirlərinin həqiqətə uyğun olmadığını bəyan edib.

FHN-dən "Şərq"ə verilən məlumata görə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq hər bir istehlakçı öz qaz təsərrüfatının, qaz qurğularının təhlükəsiz istismarına cavabdehlik daşıyır.

Qaz qurğularının və avadanlıqlarının texniki müayinəsi qanunun tələblərinə müvafiq olaraq FHN tərəfindən deyil, qazpaylayıcı təşkilatlar tərəfindən həyata keçirilməlidir: "FHN ümumilikdə əhalinin təhlükəsizliyinin təmin olunması üçün maarifləndirmə işləri aparır. Bu çərçivədə, əhalinin dəm qazı ilə əlaqədar təhlükəsizliyinin təmin edilməsinə və insanların maarifləndirilməsinə dəstək məqsədilə Nazirlik tərəfindən mütəmadi qaydada müvafiq maarifləndirmə tədbirləri həyata keçirilir".

# "Biz də öz evimizə qayıtmaq istəyirik"

## Flora Qasımova: “Hər kəs öz evinin ünvanını da bilir, harada, hansı ərazidə yaşadığını da...”

**”Xankəndinin hər bir sakini öz evinə qayıdacağı günü gözləyir. Xankəndinin hər bir sakininin ürəyində doğma yurd, ocaq həsrəti qövr edir. Mən bunu əminliklə deyirəm”. Bu sözləri ”Şərq”ə açıqlamasında tarixi yurdumuz Xankəndidə dünyaya gələn, ömrünün əhəmiyyətli bir hissəsini bu şəhərdə keçirən, həm əmək, həm ictimai fəaliyyətlə məşğul olan, erməni separatçılarının etnik təmizləmə əməliyyatı nəticəsində doğma yurdundan didərgin düşdükdən sonra isə məhz Xankəndi və xankəndliləri Milli Məclisdə təmsil edən sabiq deputat Flora Qasımova söylədi.**



*"Xankəndinin azərbaycanlı əhalisi, eləcə də Xocalı, Kərkicahan, digər qəsəbə və kəndlərimizin yurdlarından didərgin salınmış əhalisini dinc etiraz aksiyasına cəlb etməliyik"*

Flora xanımın həyatı haqqında qısa xatırlatma yerinə düşər: Qasımova Flora Qasım qızı 1947-ci ildə Azərbaycanın qədim yurdu Xankəndidə anadan olub. Orta məktəbi Xankəndidə bitirib. İlk əmək fəaliyyətinə də Xankəndidə başlayıb və məzunu olduğu məktəbdə riyaziyyat fənnini tədris edib. İctimai işlərdə fəal olduğuna görə Məktəb Komsomol Təşkilatının katibi seçilib. Daha sonra isə əvvəlcə Vilayət Komsomol Komitəsinin plenumuna üzv, 1973-cü ildə vilayət sovetinin deputatı seçilib. Orta məktəbdə eyni sinifdə oxuduğu Şirin Mirzəyevlə 1976-cı ildə ailə həyatı qurandan sonra (Flora xanımın həyat yoldaşı Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant, Qarabağ müharibəsi şəhidi, Qarabağda ilk özünümüdafiə batalyonunu yaradan Şirin Mirzəyevdir) Xankəndini tərk edib. Qarabağ müharibəsində həyat yoldaşına mənəvi dayaq olan Flora xanım, həm də baş verən hadisələrin canlı şahididir. İki dəfə - Azərbaycan Respublikası Milli Məclisinin IV çağırış və V çağırış deputatı seçilib, 122 saylı Xankəndi seçki dairəsindən. Flora xanım Qarabağ müharibəsində igid oğullarımızın qəhrəmanlığı, ordumuzun qələbələri, Xankəndidə azərbaycanlılara qarşı erməni separatçılarının törətdiyi vəhşiliklər, Xocalı soyqırımı haqqında, şahidi olduğu hadisələr barədə dəfələrlə danışıb. Budəfəki söhbətimiz isə artıq 1 aydan çoxdur Xankəndi-Laçın yolunda ekofəalların keçirdiyi etiraz aksiyası barədə oldu.

**Flora xanım bildirdi ki, aksiya iştirakçılarının fədakarlığı, vətənpərvərliyi ən yüksək dəyərə layiqdir:**

- Qarlı, şaxtalı havada yurdumuzun təbii sərvətlərinin keşiyində dayanan insanlar vətənpərvərliyin ən yüksək nümunəsini göstərir. Onları təqdir edirəm, alqışlayıram. Onlar Azərbaycanın təbii sərvətlərinin talanmasına etiraz edir, talançıların qarşısına sipər çəkirlər. Milli Məclisin deputatı olduğum illərdə mən bu məsələni qaldırmışdım. O zaman da məlum idi ki, bəzi xarici şirkətlər Kəlbəcərdə, Qarabağda təbii sərvətlərimizi talan edir, qanunsuz fəaliyyətlə məşğuldurlar. Təklif edirdim ki, Milli Məclis işğal altında qalan ərazilər və qanunsuz fəaliyyəti qadağan edən qanun qəbul etsin. Bu qanun gələcəkdə cinayətkarların cəzalandırılmasında bizim üçün hüquqi əsas olacaq. Gürcüstan belə bir qanun qəbul etmişdi, nümunə vardı artıq. Təəssüf ki, belə bir qanun qəbul edilmədi. Həm separatçılar, həm də onların havadarları olan dövlətlərin şirkətləri tərəfindən təbii sərvətlərimizin talanı davam etdirildi. Sizə deyim ki, köçkünlükdən əvvəl Ağdərədə yaşamış bir nəfər mənə məktub göndərmişdi. Məktubda o şəxs Ağdərənin təbii sərvətlərinin siyahısını qeyd etmişdi. Nələr varıydı o siyahıda; qızıl, mis, qurğuşun, sink, daş kömür yataqları... Ərazilərimiz işğal altında qaldığı illərdə biz oradakı qanunsuz fəaliyyətlə bağlı cinayət işi qaldırmalıydıq. Dünyaya bildirməliydik ki, torpaqlarımızda talançılıqla məşğul olurlar. O zaman bunu etmədik, indi isə tamamilə haqlı olaraq təbii sərvətlərimizə sahib çıxırıq. Ekoloji terrora ”yox” deyirik. İndi də gec deyil. Ekoloji terror həyata keçirənlər cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Cənab Prezident çıxışlarında ”sanki buradan vəhşi qəbilə keçib” deməklə ermənilərin xislətini tamamilə doğru ifadə edib. Bunlar necə xalqdır ki, olduqları yeri viran qoyurlar?! Etnik təmizləmə aparırlar, soyqırım edirlər, insanları yurdundan-yuvasından didərgin salırlar, tarixi abidələri məhv edirlər, təbiətə qarşı da soyqırım həyata keçirirlər. Ermənilər bədbəxt millətdir. Bunlar düşünməyib ki, tutalım müstəqil olduq, hərçənd onların ”arzusu” ”Böyük Ermənistan”a birləşmək olub, amma guya ki, müstəqil dövlət qurmaq istəyirdilər, bir tərəfdə Azərbaycan, bir tərəfdə Türkiyə kimi dövlət, siz də bu millətə nifrət bəsləyirsiniz, bəs necə yaşayacaqsınız? Bu insanları bir başa salan olmadı ki, başqa millətə nifrət bəsləməklə, özü də hansı millətə, hansı ki, sənə torpaq verib, çörək verib, sənin sözün həqiqi mənasında bir xalq kimi meydana çıxmağına şərait yaradıb, amma sən onunla düşmənçilik edirsən. Onların bədbəxtliyi bundadır ki, tarix boyu bəzi böyük dövlətlərin oyuncağına çevriliblər. Bu da sonları.

**F.Qasımova Xankəndidəki yaşayışlarından da danışdı:**

- Bizim evimiz şəhərin içində idi. Xankəndidə qarışıq məhəllələr də vardı, sırf azərbaycanlıların yaşadığı məhəllələr də. Aksiya zamanı üzərində ”Lesnaya ulitsa” yazılmış lövhə tutan Aytən xanım tibb işçisidir, həm də mərhum Şirin Mirzəyevin əmisi nəvəsidir. Həmin Lesnaya küçəsi Şirin Mirzəyevin vaxtilə yaşadığı küçədir. Xankəndidə ”Zavodskaya” küçəsi vardı, Sabir adına küçə vardı. Kərkicahan qəsəbəsində bütünlüklə azərbaycanlılar yaşayırdı. Kərkicahan qəsəbəsinin sakinləri çox mərd, qoçaq insanlar idi. Təsəvvür edin ki, bu qəsəbə tam 3 il erməni separatçılarına sinə gərdi. Bütün təhdidlərə, zorakılıqlara, ermənilərin silahlı hücumlarına, basqınlara baxmayaraq 3 il qəsəbədən bir nəfər də evini tərk etmədi. Kərkicahan əsas dayaq məntəqəsi hesab olunurdu və erməni separatçıları onu ələ keçirməyə cəhd edirdilər. Kərkicahan çox az sayda hərbi qüvvə ilə uzun müddət düşmənə müqavimət göstərib, nəhayət, 1992-ci il yanvarın 2-də qəsəbə işğal olunub, bununla həm Xocalı hədəf alındı, həm Şuşanın yolu açıldı. Təkcə Kərkicahanda 2 min azərbaycanlının yaşadığı deyilirdi. Sözsüz ki, say bundan çoxdur. Amma məlum məsələdir ki, ermənilər hər işdə saxtakarlığı yaxşı bacarır. Necə ki, Xankəndidə, guya ki, erməni əhalinin azərbaycanlılardan sayca çox olduğunu iddia edirlər, eləcə də Kərkicahanda siyahıyaalmada azərbaycanlıların sayını azaldıblar. Biz illər əvvəl Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi ilə birgə Xankəndi köçkünlərini siyahıya almışdıq. 12 min nəfər vardı siyahıda. Nəzərə alaq ki, 1992-ci ildən əvvəl də Xankəndidən köçən azərbaycanlılar olub. Müxtəlif səbəblərdən başqa şəhərlərə köçüblər. Amma ermənilər Xankəndidən birdəfəlik köçüb gedənləri də biclik işlədib qeydiyyatda saxlayırdılar, təki erməni əhalisinin sayı çox görünsün. Onlar 100 il əvvəldən bu məkrli planları qurublar, öz xəbis, pis niyyətlərini də addım-addım həyata keçirməyə çalışıblar. Hesab edirəm ki, Xankəndinin azərbaycanlı əhalisi, eləcə də Xocalı, Kərkicahan, digər qəsəbə və kəndlərimizin yurdlarından didərgin salınmış əhalisini dinc etiraz aksiyasına cəlb etməliyik. Qoy dünya görsün ki, bizim soydaşlarımız ev-eşiyindən didərgin salınıb, köçkün həyatına məhkum edilib, həmin bu erməni separatçıları tərəfindən. Biz də öz evimizə qayıtmaq istəyirik. Evimizin, yurdumuzun həsrətini çəkirik. Hər kəs öz evinin ünvanını da bilir, harada, hansı ərazidə yaşadığını da. Bu insanlar da aksiyada iştirak etməli, ictimai fəallara dəstək olmalıdırlar.

**Flora Qasımova qeyd etdi ki, tarixdən dərs almasaq, gələcəkdə nəvə-nəticələrimiz də eyni faciələrlə üzləşə bilər:**

- Nə qədər ki, separatçılar cəzalandırılmayıb və Azərbaycanın qanuni ərazilərini tərk etməyiblər, sülh çətin əldə olunacaq. Hazırda Xankəndidə yaşayan ermənilərin böyük hissəsi azərbaycanlılara qarşı soyqırımda, talançılıqda iştirak edib. Bunu özləri etiraf edirlər, danışırlar. Azərbaycanlılara qarşı soyqırımda iştirak edən hər kim varsa, hamısı layiqli cəzasını almalıdır. Bizim tələbimiz budur: Qanunsuz silahlı birləşmələr hazırda olduqları ərazilərimizi tərk etsinlər, ərazilərimiz silahlı erməni birləşmələrindən tamamilə təmizlənsin, 10 noyabr 2020-ci il Bəyanatının bəndlərinə əməl edilsin, Azərbaycan dövləti öz ərazisindəki dəhlizə özü nəzarət etsin. Ermənistan Bəyanatın tələblərinə əməl etmirsə, biz niyə onlara dəhliz verməliyik? Azərbaycan Ordusunun gücünü görmüş ermənilərin bundan sonra hərbi yola əl atacağı inandırıcı deyil. Onlar tarixdən dərs çıxarmalıdırlar. Biz də həmçinin. Əgər nəticə çıxarmasaq, nəvə-nəticələrimiz gələcəkdə eyni faciələrlə üzləşə bilər.

**Məahət Rzayeva**

# O, sıradan biri deyil

## Saakaşvili həbsxanada həyatını itirərsə, bu gürcü xalqının tarixində ən utancverici bir hadisə olacaq

**”Gürcüstan hökuməti dünyanın gözləri qarşısında gürcü xalqına onun yatıb yuxuda görə bilməyəcəyi demokratik ortam bəxş etmiş Mixeil Saakaşvilini öldürür”.**



Özünün şəxsi feysbuk hesabında bu sözləri yazan sabiq maliyyə naziri, professor Fikrət Yusifovun sözlərinə görə, postsovet məkanında ”vor zakon” istehsal edən bir xalqa bir neçə il ərzində Avropa dəyərlərini aşılamaq o qədər də asan iş deyilmiş: ”Ancaq M.Saakaşvili bu fantastik inqilaba cürət etdi. Bu inqlabın nəticələrini çoxlarımız gedib yerində gözlərimizlə görsək də, onun baş verdiyinə inana bilmirdik. Az müddət ərzində demokratik inqilabın başa çatdığı real görünmürdü. Bu gün o şübhələrimiz təsdiqlənir. Böyük əksəriyyətinin xislətində yaramaz əməllər kök salmış bir millətin yüz illər boyunca formalaşmış baxışlarını qısa zaman kəsiyində demokratik dəyərlərlə əvəzləmək mümkün deyildi.

Dünya tarixində ən böyük və ən çətin inqilab, şüurda edilə bilən inqilabdır. Belə inqilabın başa çatması üçün uzun yol keçilməlidir. M.Saakaşvilinin Gürcüstanda başlatdığı inqilab davam etmədi. Çünki gürcü xalqının çoxluğu bunu istəmədi (istəsəydilər M. Saakaşvili bu gün Gürcüstan türməsində can verməzdi). Bir sözlə, M.Saakaşvilidən sonra gürcülər ”kəndinə qayıtmağa” başladılar. Saakaşvili yolunu davam etdirmək heç kimə lazım olmadı. M.Saakaşvili bunun belə olduğunu bilirdi və elə bu səbəbdən də hər şeyi göz önünə alıb, Gürcüstana döndü. O, başladığı və yarımçıq saxlanılmış inqilabı başa çatdırmaq istəyirdi. Ancaq görünən budur ki, gürcü xalqı bir xalq olaraq ona demokratik dəyərlər bəxş edəcək inqilaba hazır deyildi və bunu istəmirdi”.

Professorun sözlərinə görə, M.Saakaşvili Gürcüstan türməsində həyatını itirərsə, bu, gürcü xalqının tarixində ən utancverici bir hadisə olacaq! Çünki o, sıradan biri deyil, yüksək bəşəri dəyərləri olan böyük və böyük olduğu qədər də cəsur bir siyasətçidir!

**Şəymən**

# Resept Qərbin mətbəxində hazırlanıb

## Baş nazirin açıqlamaları onun beyninin məhsulu deyil



**Ermənistan Baş naziri Nikol Paşinyan deyib ki, İrəvan və Ankara təkcə danışıqlar aparmamalıdır, prosesin dinamikasını artıran konkret addımlar da atılmalıdır. Paşinyan hər iki ölkənin xüsusi nümayəndələrinin fəaliyyətinin vacibliyini, Ərdoğanla birbaşa danışıqların əhəmiyyətini vurğulayıb və yaxın vaxtlarda sərhədlərin açılacağına ümid etdiyini qeyd edib:**

”Nəqliyyat əlaqələri nəzərindən regionun logistik əhəmiyyəti dəyişir, daha vacib rol oynayır. Ermənistanla Türkiyə arasında sərhədlərin, o cümlədən dəmir yolunun açılması qlobal əhəmiyyət daşıyacaq. Həmçinin Azərbaycanla Naxçıvan, İranla Azərbaycan, Ermənistanla Rusiya arasında əlaqələrin inkişafında əhəmiyyətli olacaq”.

*"Əgər Paşinyan Türkiyə ilə əlaqələrin normallaşmasına diqqət yetirirsə, deməli, Qərbdən təlimat alıb"*

**Ermənistan baş nazirinin ifadələrini ”Şərq”ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bildirib ki, Paşinyan zaman-zaman Türkiyə lideri ilə dialoqa girmək arzusunda olduğunu dilə gətirir. Professor diqqətə çatdırıb ki, iki ölkənin xüsusi nümayəndələri bir sıra görüşlər təşkil etsələr də, münasibətlərdə irəliləyiş yoxdur:** ”Səbəbi odur ki, İrəvan həm verdiyi sözlərdən qaçır, həm də normal təməl şərtləri belə qəbul etmir. Fikrimcə, növbəti mərhələdə fərqli mənzərənin şahidi ola bilərik. Yəni təmaslar və müəyyən irəliləyişlər ehtimalı var. Əgər Paşinyan Türkiyə ilə əlaqələrin normallaşmasına diqqət yetirirsə, deməli, Qərbdən təlimat alıb. Onun göstərişləri Qərbdən gəlir. Əlbəttə, Qərb dedikdə Fransanı nəzərdə tuturam, çünki Paris-Ankara münasibətləri yüksək səviyyədə deyil. Təlimatın ABŞ-dən gəldiyini düşünürəm. Əlbəttə, prosesin dinamikasını tənzimləmək, Ermənistanın addımlarından asılı olacaq. Türkiyə-Ermənistan dəmir yolunun açılması isə Bakı-İrəvan arasında cərəyan edən proseslərdən, əldə olunmuş razılaşmalardan asılıdır. Belə bir əlaqə Zəngəzur dəhlizi ilə bağlı reallaşa bilər”.

**C.Nuriyev bir məqama da diqqət çəkib:** ”Türkiyədə prezident seçkiləri yaxınlaşır və əsas namizədlərdən biri indiki Prezident Rəcəb Tayyib Ərdoğandır. İrəvan hökumətinin başçısı Qərbin, ABŞ-nin təlimatı ilə seçki öncəsi Ərdoğanı nüfuzdan salmaq, onu çıxılmaz vəziyyətdə qoymaq niyyəti də güdə bilər. Yəni görüntü yaradırlar ki, baxın, Paşinyan normallaşmadan danışır, dialoq, görüşlə bağlı təkliflər verir, amma Ərdoğan bu məsələni rəfə qaldırır. Burada erməni məkrini də unutmamaq lazımdır. İstənilən halda baş nazirin açıqlamaları onun beyninin məhsulu deyil. Qərbin mətbəxində hazırlanmış bir reseptdir. Paşinyan isə resepti sadəcə üzündən oxuyur”.

**Professor vurğulayıb ki, Paşinyanla Ərdoğan arasında birbaşa təmas və görüş ancaq Azərbaycanın razılığı ilə mümkündür:** ”Paşinyanın Ərdoğana hansısa şərt sürmək imkanları sıfıra bərabərdir. Türkiyənin isə özü ilə 2 əsas şərti var. Birincisi, erməni tərəfi bütün ərazi iddialarından birdəfəlik əl çəkməlidir. İkincisi, uydurma ”soyqırım” iddiasından vaz keçməkdir. Digər iki şərt isə Azərbaycanla bağlıdır. Rəsmi Bakı ilə sülh müqaviləsi bağlanmalı və Zəngəzur dəhlizinin açılmasıdır. Problem ondadır ki, az qala hər gün ziddiyyətli açıqlama ilə gündəmə gələn Paşinyana etimad göstərmək qeyri-mümkündür. Görünür, Qərbin də məqsədi Ermənistan vasitəsilə bölgədə yeni siyasi arxitektura yaratmaqdır. Paşinyanı da həmin arxitekturanın dizaynında rol oynamağa sövq edirlər. Amma alınmayacaq, Cənubi Qafqazda söz sahibi Azərbaycan, ümumən Qafqazda isə Rusiya və Türkiyədir. Hazırda Rusiyanın başı dərdədir və hər zaman olduğu kimi yenə də ermənilər ruslara arxadan zərbə vurmaqda, xəyanət etməkdədir. Artıq iki ölkənin maraqları üst-üstə düşmür və bu məqam rəsmi Bakının əlini daha da gücləndirir”.

**İsmayıl Qocayev**

# İrəvan Qərbin planlarına sadiqdir

## Paşinyanı cəsarətləndirən son günlərdə Ermənistana səfər edən Amerika və Britaniyanın kəşfiyyat idarələrinin rəhbərləridir



**”Ermənistan bu il respublikada KTMT təlimlərinin keçirilməsini məqsədəuyğun hesab etmir”.**

Bu barədə ölkənin Baş naziri Nikol Paşinyan mətbuat konfransında bildirib.

Xatırladaq ki, bundan əvvəl Rusiya Müdafiə Nazirliyi KTMT-nin ”Sarsılmaz qardaşlıq-2023” sülhməramlı təlimlərinin bu il Ermənistanda keçiriləcəyini bəyan etmişdi.

Paşinyanın sözlərinə görə, bu təlimlər baş tutmayacaq.

**Mövzunu şərh edən siyasi şərhçi Turab Rzayev ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Ermənistan Qərbə arxalanaraq bu addımları atır:**

”Xatırlayırsızsa, Paşinyanın hakimiyyətə gəlməsi üçün inqilab təşkil olundu. Qərbin liberal qüvvələri ona dəstək verdilər. Bu dəstəyin qarşılığında qabağına qoyulan əsas tələb, Ermənistanın Rusiyanın təsir dairəsindən çıxaraq Qərbə inteqrasiya etməsi və rus ordusunun onun ərazisindən çıxarılması idi.

Əlbəttə, bu, kifayət qədər çətin bir missiya hesab oluna bilər. Amma Paşinyan hakimiyyətə gəldiyi zaman, insanlar küçələrə çıxaraq rus ordusunun Gümrüdən çıxarılmasını tələb etdilər. Daha sonra isə erməni cəmiyyətinin başı Qarabağ müharibəsinə qarışdı”.

Analitik qeyd edib ki, istənilən halda biz Paşinyanın bu plana sadiq qaldığını gördük: ”Çünki müharibə dövründə də əsas gündəm Kremlin İrəvana yardım etməyərək, onlara xəyanət etməsi idi. İndi də bu gündəm davam etdirilir. Ermənistanın KTMT-nin təşkil etdiyi görüşlərə qatılmaması və İrəvandakı iclasda Paşinyanın yekun sənədi imzalamaması, bizə Nikolun açıq şəkildə ”Ermənistan Rusiya ilə müttəfiqlikdən uzaqlaşmaq istəyir” siqnalı ötürdüyündən xəbər verir.

Hətta buna görə sərhəddə xarici hərbi dəstək dəvət edir və Avropa İttifaqının göndərdiyi monitorinq qrupunun vaxtının uzadılmasını istəyir. Bütün bunlara eyni sistemin tərkibində baxdıqda, Paşinyanın Kremlin rəhbərliyi altında olan təşkilatlarda aktiv iştirak etmək istəmədiyi bəlli olur. Ermənistanda keçiriləcək təlimlərdən imtina da sırf bununla bağlıdır. Ümumiyyətlə, Putinin Ukraynada düçar olduğu biabırçı vəziyyət, Paşinyanda ”Rusiya Ermənistanı açıq şəkildə cəzalandıra bilməz” düşüncəsi yaradır. Bu səbəblə də açıq şəkildə addımlar atır.

Rəsmi İrəvanı cəsarətləndirən isə son günlərdə Ermənistana səfər edən Amerika və Britaniyanın kəşfiyyat idarələrinin rəhbərləridir”.

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Azərbaycan-İsrail münasibətləri tarixi-mədəni köklərə əsaslanır

## Hər iki xalq tarixin çətin dönəmlərində qarşılıqlı anlaşmaya, tolerantlığa əsaslanan birgə yaşayış nümunəsini bütün dünyaya göstərə biliblər

**Hər bir dövlət təhlükəsizliyini və inkişafını təmin etmək məqsədilə daxili-xarici siyasi xəttini seçərək müxtəlif dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələr yaradır. Kifayət qədər mürəkkəb və strateji cəhətdən olduqca əhəmiyyətli coğrafi bölgədə yerləşən ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra digər ölkə və beynəlxalq təşkilatlarla əlaqələrin qurulması sahəsində ciddi addımlar atmağa başlayıb. Bununla yanaşı, Azərbaycanla əlaqələrin qurulmasında maraqlı olan ölkələr müstəqil dövlətimizi beynəlxalq hüququn subyekti kimi rəsmən tanıyaraq, diplomatik əlaqələrin qurulmasında önəmli səy göstəriblər.**

Bütün mərhələlərdə Azərbaycanla dostluq münasibətlərinə üstünlük veriblər. Belə ölkələrdən biri də dost İsrail dövlətidir. İki dost ölkə arasında mühüm hadisələrdən biri nəhayət uzun zamandan sonra Azərbaycanın İsraildə səfirliyinin açılması ilə bağlı qərar oldu. Bir müddət əvvəl Milli Məclisdə "Azərbaycan Respublikasının İsrail Dövlətində (Təl-Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi qəbul edildi. Daha sonra Prezident İlham Əliyev İsraildə səfirliyin təsis edilməsi haqqında qanunu təsdiqlədi.

İsrailin Azərbaycandakı səfiri Corc Dik səfirliyin açılması qərarını alqışlayıb və bu addımın ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəyini deyib. Bildirib ki, ötən il Azərbaycanın Təl-Əvivdə səfirlik açmaq qərarı sayəsində ölkələr arasında münasibətlər yeni səviyyəyə yüksəlib: "Bu qərar çoxdan gözlənilən və tarixi qərar idi. Aramızda diplomatik əlaqələr 30 ildir qurulub, İsrailin Bakıdakı səfirliyi isə 1993-cü ildən fəaliyyət göstərir. Azərbaycan parlamentinin bu qərarı yekdilliklə təsdiqləməsi, daha sonra isə prezidentin müvafiq qanunu imzalaması bizi sevindirdi. Səfirliyin açılmasının bir neçə müsbət nəticəsi olacaq. Bu, ilk növbədə, ölkələrimizin xalqlarına iki dövlət arasında münasibətlərin strateji və dərin olması və onlarla fəxr edə biləcəyimizə dair mesajdır. İkincisi, bu, Yaxın Şərq və bu region ölkələrinə mesajdır ki, həm Azərbaycan, həm də İsrail bu ikitərəfli münasibətləri qarşılıqlı faydalı hesab edirlər. Başqa dövlətlər bəyənsə də, bəyənməsə də, bizim aramızda mühüm və strateji tərəfdaşlıq var. Bundan əlavə, indiyədək Azərbaycanın İsraildə siyasi nümayəndəliyi, əməkdaşlıq etmək üçün startapların, texnologiya şirkətlərinin və universitetlərin nümayəndələri ilə görüşə biləcək kimsə olmayıb. Azərbaycanın mövqeyini təqdim edən kimsə olmayıb. İndi isə İsraildə səsimiz və hökumət körpüsü olacaq. Bu da Azərbaycan xalqının İsrailin təklif etdiyi layihələrdən faydalanmasına imkan verəcək. Fikrimcə, Azərbaycanda ictimaiyyət, xüsusən də ikinci Qarabağ müharibəsindən sonra, İsraildə səfirliyin açılmasını böyük çoxluqla dəstəkləyir".

İctimaiyyət nümayəndələri də bu qərarı çox yüksək qiymətləndiriblər. Vurğulanıb ki, Azərbaycan-İsrail münasibətləri yalnız iqtisadi-strateji faydaya deyil, həm də tarixi-mədəni köklərə əsaslanır. Hər iki xalq tarixin çətin dönəmlərində qarşılıqlı anlaşmaya, tolerantlığa əsaslanan birgə yaşayış nümunəsini bütün dünyaya göstərə biliblər. Ölkəmiz daim müxtəlif din və millətlərin qarşılıqlı hörmət şəraitində yaşadığı bir dövlət modelini sərgiləyib. Azərbaycanda heç zaman milli-etnik dözümsüzlük və bəzi ölkələrdə müşahidə olunan antisemitizm təzahürləri olmayıb. Bu səbəbdəndir ki, yəhudilərin ən rahat yaşadıqları ölkələrdən biri məhz Azərbaycandır. Əsrlər boyu ölkəmizdə yaşayan yəhudilər özünü Azərbaycan xalqının, cəmiyyətinin ayrılmaz tərkib hissəsi hesab edib, ölkə həyatının bütün sahələrində fəal iştirak ediblər. Bütün bunlar iki ölkənin əlaqələrinin inkişafında müstəsna rol oynayan amillərdi. İki ölkə arasında münasibətlərin qurulmasının 30 illiyində əməkdaşlıq strateji müttəfiqlik səviyyəsinə qədər inkişaf edib.

Bir məqamı da xatırladaq ki, İsrailin Avrasiya ölkələrindəki səfirləri Bakıda toplaşacaq. İsrail Xarici İşlər Nazirliyinin yüksək vəzifəli şəxslərinin iştirakı nəzərdə tutulan görüşün yanvarın 16-18-də keçirilməsi planlaşdırılır. Səfirlərin Bakı toplantısının gündəliyi və digər detallar hələlik məlum deyil. Ekspertlərin fikrincə, səfirlərin görüşünün Bakıda keçirilməsi iki ölkə arasında qarşılıqlı etimaddan irəli gəlir.

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov bildirib ki, yanvarın 16-18-də Bakıda İsrailin Avrasiya ölkələrindəki səfirlərinin görüşünün keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun yüksək olduğunu təsdiqləyir.** Analitikin sözlərinə görə, Azərbaycan bundan öncə də geosiyasi baxımdan bir-biri ilə münaqişədə olan ayrı-ayrı dövlətlərin yüksək rütbəli nümayəndələrinin görüşünə ev sahibliyi edib: "Hər bir dövlət Azərbaycanı neytrallığına görə rahatlıqla görüş məkanı kimi seçə bilir. Bu dəfə də İsrailin Azərbaycanı görüş üçün seçməsi olduqca rasional qərardır. Çünki İsrail-Azərbaycan əlaqələri durmadan inkişaf edir. Avrasiyanın orta xəttində İsrailin güvənə biləcəyi ölkə məhz Azərbaycandır. Azərbaycan-İsrail əlaqələri kimin nə deməsindən asılı olmayaraq, yüksələn xətlə inkişaf edir və edəcək". Ekspert bildirib ki, Avrasiya ölkələrinin diplomatik korpusunun Bakıya gəlib Azərbaycanla tanış olması informasiya siyasəti baxımından bizim üçün faydalı olacaq: "İsrailin yüksək vəzifəli şəxslərinin Azərbaycana səfərini nəzərə alsaq, əlbəttə, bu, Cənubi Qafqazda gedən proseslər üçün yeni səhifə deməkdir. Azərbaycan-Türkiyə-İsrail "geosiyasi oxu" çox böyük nəticələr əldə edə bilər. Bu birlik eyni zamanda geosiyasi sabitliyə təsir göstərə bilər".

Millət vəkili Ceyhun Məmmədov da bildirib ki, toplantının Azərbaycanda keçirilməsi iki dövlət arasındakı qarşılıqlı inamı təcəssüm etdirir. Bu həm də İsrail-Azərbaycan əlaqələrinin necə sürətlə inkişaf etməsinin sübutu kimi dəyərləndirilə bilər: "Yeri gəlmişkən, bu görüş həm də Azəbaycandakı stabilliyə dünya ölkələrinin inamının ifadəsidir. Bundan sonra da İsrail-Azərbaycan əlaqələrinin yüksək səviyyədə inkişafının şahidi olacağıq. İsrail-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olması bu qərara şərait yaradıb. İsrail və Azərbaycan əlaqələri yüksək səviyyədə inkişaf edir. Bu inkişaf hər iki ölkənin marağındadır. Azərbaycan İsrailə, İsrail də Azərbaycana həmişə dost münasibət bəsləyib. İsrail Azərbaycanın mövqeyini bütün platformalarda müdafiə edib. Eyni zamanda qeyd edim ki, Azərbaycanın İsraildə səfirlik açması da münasibətlərin inkişafına təkan verəcək".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Qazilərə meyitdən əl-ayaq köçürə bilərik"

## Mircəlal Kazımi: "Amma gərək orqanlarını bağışlayan insanlar olsun"

**İlk qaraciyər transplantasiyası 2008-ci ildə bizim Mərkəzi Neftçilər Xəstəxanasında keçirilib. 1971-1972-ci ildə ilk böyrək köçürülməsi də Zaqafqaziyada akademik Cavadzadə tərəfindən edilmişdi. Bu, transplantasiya tariximizin başlanğıcı idi. O vaxt hələ heç Türkiyə və İranda bu mövzuda heç danışılmırdı. İndiyədək bizim tərəfimizdən 1500-dən çox qaraciyər və böyrək köçürülməsi əməliyyatı aparılıb.**

Bunu Səhiyyə TV-də çıxışı zamanı transplantoloq-cərrah Mircəlal Kazımi bildirib.

O qeyd edib ki, təəssüf ki, Azərbaycanda digər orqanlarla bağlı vəziyyət yaxşı deyil: "Çünki bizdə meyitdən orqan götürülməsi praktikası işləmir. Biz yalnız pasiyentlərə qohum insanlardan, canlı donordan orqan ala bilirik, o da böyrək və qaraciyər çatışmazlığı olanlar üçün. 44 günlük müharibədə yuxarı və aşağı ətraflarını, gözünü itirən xeyli sayda qazimiz var. Hazırda dünyada əl, qol, ayaqların da meyitdən alınaraq insana köçürülməsi məsələsi gündəmə gəlib. Hətta icra olunur. Biz də bunu öyrənib asanlıqla icra edə bilərik. Amma gərək orqanlarını bağışlayan insanlar olsun. Bioloji beyin ölümü keçirmiş insanların sağlam əzalarını qazilərimizə köçürüb onları xilas etmək mümkündür.

Meyitdən ağciyər, ürək, göz, ətraflar, mədəaltı vəz kimi orqanları götürüb ehtiyacı olanlara köçürə bilərik".

**Aygün**

# İranda etiraz aksiyalarının 109 iştirakçısı edam oluna bilər



**İranda ümummilli etiraz aksiyalarında iştirak edən 109 nəfər edam oluna bilər.**

**"Report" "RadioFarda"ya istinadən xəbər verir ki, bu barədə İran İnsan Hüquqları Təşkilatı məlumat yayıb.**

Təşkilatın təqdim etdiyi siyahıya əsasən, Xuzistanda 24, Sistan və Bəlucistanda 22, Tehranda 20, Mazandaranda 10, İsfahanda 8, Qərbi Azərbaycanda 7, Gilan, Əlborz, Farsda 5 nəfər, Şərqi Azərbaycanda 3 nəfər, Çaharmahal və Bəxtiyaridə hər birində 2 nəfər, Kirmanşah, Kürdüstan və Rəzəvi Xorasanda isə 1 nəfər edam təhlükəsi altındadır.

Bildirilib ki, həbsdən azad edildikdən qısa müddət sonra bəzilərinin şübhəli ölümünə (intihar iddiaları da daxil olmaqla) məlumatlar yayılır.

Təşkilatın tərtib etdiyi statistik məlumatlara görə, etirazlar başlayandan bəri Sistan və Bəlucistanda azı 131, Tehranda 56, Qərbi Azərbaycanda 54, Kürdüstanda 53, Mazandaranda 39, Gilanda 25, Kirmanşahda 24, Əlborzda 24 nəfər, İsfahanda 14 nəfər, Xuzistanda 12 nəfər, Farsda 12 nəfər, Rəzəvi Xorasanda 7 nəfər, Şərqi Azərbaycanda 4 nəfər, Zəncanda 3 nəfər, Lorestanda 3 nəfər, Mərkəzidə 3 nəfər, Qəzvində 3 nəfər, Həmədanda 2 nəfər, Kohguliyə və Boyer Əhməddə 2 nəfər, İlamda 2 nəfər, Ərdəbildə 2 nəfər, Buşehrdə 2 nəfər, Hormozqanda 2 nəfər, Semnanda 1 nəfər və Gülistanda 1 nəfər öldürülüb.

*Qeyd edək ki, aksiyalar başlayandan Güney Azərbaycandakı etirazlarda 76 nəfər hərbi-polis qüvvələri tərəfindən qətlə yetirilib.*

*Xatırladaq ki, Tehran, Məşhəd və Kərəcdə dörd etirazçı - Möhsün Şəkəri, Məcidreza Rəhnavard, Məhəmməd Mehdi Kərəmi və Məhəmməd Hüseyni barəsində çıxarılan ölüm hökmü icra olunub.*

# Tələbələrin köçürülməsi ilə bağlı dəyişikliklər hazırlanır

**Cari tədris ilinin qış tətili dövründə tələbələrin bərpası və akademik məzuniyyətdən qayıtması məsələlərinə ənənəvi qaydada baxılacaq.**



Elm və Təhsil Nazirliyindən verilən xəbərə görə, hazırda təhsilin müxtəlif pillələrində təhsil alan tələbələrin köçürülməsi ilə bağlı qanunvericilikdə dəyişikliklər hazırlanır.

Məsələ geniş şəkildə Milli Məclisdə və ictimaiyyətdə müzakirə olunur.

Köçürülmə və bərpa proseslərinin sadələşdirilməsi məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində müəyyən işlər görülməkdədir.

Bununla əlaqədar olaraq 2022-2023-cü tədris ilinin qış tətili müddətində transfer.edu.az portalı vasitəsilə respublika daxilində, eləcə də xarici ölkələrin ali və orta ixtisas təhsili müəssisələrindən (bir ixtisasdan və (və ya) təhsilalma formasından digərinə) tələbələrin köçürülməsi həyata keçirilməyəcək.

*Qeyd edək ki, tələbələrin respublika daxilində və xarici ölkələrin ali təhsil müəssisələrindən köçürülməsi, həmçinin tələbələr sırasına bərpası məsələlərinə növbəti dəfə 2022-2023-cü tədris ilinin yay tətili müddətində baxılması nəzərdə tutulur.*

# Gedənlər qayıdacaq

## İndi daha çox magistratura səviyyəsində təhsil almaq istəyən gənclər xaricə göndəriləcək



***Xaricdə dövlət proqramı çərçivəsində təhsil alacaq şəxslərlə müvafiq öhdəliklərin olacağı müqavilələrin imzalanması da nəzərdə tutulur***

**Xaricdə təhsil alan gənclər təhsil aldıqdan sonra respublikamıza qayıdarkən iş problemi ilə üzləşirlər. Bu səbəbdən də təhsil almaq üçün xaricə göndərilən gənclərin xeyli hissəsi geri qayıtmır. Qalıb orada yaşayır və karyera qurur. Bunun əsas səbəbi isə həmin ölkələrdə gənclərə təhsillərini başa vurduqdan sonra böyük iş imkanlarının yaradılmasıdır.**

Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucovun sözlərinə görə, xaricdə təhsil alan gənclər üçün həmin ölkələrin əmək bazarında təkliflər çoxdur. Azərbaycanın isə əmək bazarı kiçikdir:

"Danılmaz həqiqətdir ki, gənclər təhsil üçün getdikləri ölkələrdə daha yüksək əməkhaqqı qarşılığında qalırlar. Orada onlara təklif olunan yüksək əməkhaqqını qoyub kim gəlib burada az maaşa işləyər? Ölkənin əmək bazarında bu kadrlara ehtiyac olsa da, onların maddi tələbatları qarşılanmır. Əgər biz xaricdə təhsil almış gəncə dünya əmək bazarındakı imkanları yaratmırıqsa, ona getdiyi ölkədə qalıb işləməsinə də qadağa qoya bilmərik".

**Təhsil eksperti Nadir İsrafilovun "Şərq"ə açıqlamasına görə, ali təhsilin maliyyələşdirilməsi aktiv olaraq yeni proqram əsasında həyata keçirilir. O deyib ki, "Dövlət Proqramı"nda daha çox ölkənin və dünyanın inkişafına uyğun olan sahələr prioritetləşdirilib:** "Texniki, texnoloji sahələr, mühəndislik, İT, kibertəhlükəsizlik, hərbi sənaye, kənd təsərrüfatının texnoloji inkişafı ilə bağlı sahələr, fundamental elmlər - kimya, biologiya, fizika, geologiya, onların kəsişməsi olan biokimya, bioinformatika, iqtisadiyyat, maliyyə, dövlət idarəçiliyi sahələri prioritet olacaq. Proses zamanı digər sahələrin də prioritetləşməsi gözlənilir. O sahədə ki, ölkənin inkişafına daha çox töhfə vermək mümkündür.

İndi daha çox magistratura səviyyəsində təhsil almaq istəyən gənclər xaricə göndəriləcək. Tələbələrin seçimini isə müvafiq komissiya aparacaq. Seçimlərdən uğurlu keçən tələbələrin xaricdə təhsil alacağı müddətdə maliyyələşməsi dövlət tərəfindən həyata keçiriləcək. Xaricdə dövlət proqramı çərçivəsində təhsil alacaq şəxslərlə müvafiq öhdəliklərin olacağı müqavilələrin imzalanması da nəzərdə tutulur. Həmin müqavilədə gənclərin təhsillərini bitirdikdən sonra ölkəyə qayıdan zaman işlə təminat məsələsinin də əks olunacağı gözlənilir".

**Şəymən**

## Müəllim və həkimlərin də maaşları artacaq

Konkret artım faizləri bu il fevralın 5-dək müəyyən ediləcək



**”Minimum əməkhaqqı 345 manata çatdırılıb. Artım sadəcə aşağı maaş alanlarla bağlı deyil. Sərəncam vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək”.**

Bu barədə millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib. Deputat bildirib ki, dövlət büdcəsindən maliyyələşən sahələrdə çalışan işçilərin aylıq vəzifə maaşları da Sərəncama uyğunlaşdırılacaq: ”Məbləğindən asılı olmayaraq, bu sektorlarda çalışanların maaşları artırılacaq. Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əməkhaqları artacaq. Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilir. Hazırda ilk 4 dərəcə üzrə əməkhaqqılar 345 manatdan azdır və onlar 300-338 manat arasında dəyişir. Ən yüksək dərəcə üzrə əməkhaqqı isə 979 manatdır. Minimum əməkhaqqının artırılması praktik olaraq bütün dərəcələr üzrə artımlara səbəb olacaq. Bu zaman əməkhaqqının minimum səviyyədən az və çox olması xüsusi önəm daşıyır. Konkret artım faizləri bu il fevralın 5-dək müəyyən ediləcək”.

Deputat ”müəllim və həkimlərin maaşları artacaqmı” sualını belə cavablandırıb: ”Hazırda Səhiyyə Nazirliyinin tabeçiliyindəki müəssisələr VTC ilə tənzimləndiyi üçün onların əməkhaqlarında artımlar olacaq. Amma Elm və Təhsil Nazirliyinin və TƏBİB-in ayrıca əməkhaqqı sxemi var. Bununla belə hər iki sektorda aşağı maaşlarda artımlar həyata keçiriləcək. Bu isə o deməkdir ki, fevralın 5-dək həmin qurumların da yeni əməkhaqqı cədvəllərini təsdiq üçün təqdim edəcəkləri gözlənilir”.

İsmayıl



## "Mən İlkinin qatil olduğunu düşünürəm"

Nərminin atası: “Allaha and olsun ki, heç bir məmur mənə təzyiq göstərmir”

**,10 yaşlı Nərmin Quliyevanın qətlinin təfərrüatları ilə bağlı mərhumun atası Şərif Quliyevlə həmsöhbət olduq.**

*”Şərq” söhbəti təqdim edir:*

**- İddialar var ki, ”Nərmin işi”ndə Tovuzdakı yüksək rütbəli məmurlardan birinin ”əli” var və onun sizə təzyiqinə görə məsələnin üstü açılmır?**

- Allaha and olsun ki, heç bir məmur mənə təzyiq göstərmir. Kimisə də görməmişəm. Əgər elə bir şey olsa, aidiyyəti qurumlara xəbər verərdim.

**- Bəziləri hadisədə orqan mafiyasının izi olduğunu düşünür. Razısınızmı?**

- Ortada heç bir orqan mafiyasından söhbət gedə bilməz. Əgər belə bir şey olsa idi, tibbi ekspertiza zamanı üzə çıxardı və deyərdilər ki, orqanlarından hansısa əskikdir.

**- İş necə aparılır, məhkəmə prosesi gedirmi?**

- Bir ay idi ki, məkhəmə yox idi. Amma sabah saat 4-də Gəncə Ağır Cinayətlər Məhkəməsində yenə iclas olacaq.

**- İctimaiyyətdə qatilin İlkin Süleymanov olmadığına dair qənaət var. Siz necə düşünürsünüz?**

- Biz kimik ki, burada Daxili İşlər Nazirliyi, Baş Prokurorluq işləyib. Bu adamın özünün də etiraf videosu var. Düzdür, həmin 45 dəqiqəlik video ictimaiyyətə təqdim edilməyib. Mənim yerimə olsalar, nəyə və kimə inanardılar? Guya bunlar mənim uşağıma məndən çox yanırlar? Əgər belə idisə, ona şər ataraq hamilə olub, yaxud başqa uşaqdır deməzdilər. İşin üstündə həm polis, həm də psixoloqlar işləyib. Ona görə də mən İlkinin qatil olduğunu düşünürəm.

**- Belə bir rəy formalaşıb ki, mətbuatdan qaçırsınız...**

- Bəzi kanallar var ki, tərəf tuturlar. Sözümü deməyə imkan yaratmırlar. Mənə sual verib, amma Süleymanovların tərəfini saxlayırlar. Heç vaxt mətbuatdan qaçmıram. Nə zaman lazım olsa, məlumat verməyə hazıram.

Söhbətləşdi: Nihat Müzəffər



## İmmuniteti gücləndirir

Turpun güclü qoruyucu təsirləri var

**Tərəvəz məhsulu olan turp immunitet sistemini gücləndirərək, xəstəliklərin qarşısını alır.**

Xüsusilə, qışda tənəffüs yolu xəstəliklərinə qarşı qoruyucu təsir göstərir. Yeməli tərəvəz kökü olan turp brokoli və gül kələminin aid olduğu kələmçiçəyikimilər fəsiləsindəndir. Qırmızı və qara rəngdən başqa bənövşəyi, sarı, çəhrayı və ağ kimi bir çox növləri var. C vitamini ilə zəngin olduğu üçün immunitet sisteminin gücləndirməkdə təsirlidir. Soyuqdəymə, öskürək, bronxit kimi xəstəliklərin ”dərmanıdır”.

Tərkibindəki yüksək lif sayəsində uzunmüddətli toxluq hissinin təmin edir. Ona görə də çəki nəzarəti üçün idealdır. Qəbizliyə qarşı faydalıdır. Sözügedən problemdən əziyyət çəkənlər rahatlıqla yeyə bilərlər. Eyni zamanda tərkibindəki aktiv maddələr sayəsində xərçəngə qarşı qoruyucu effektə malikdir. Kaliumla zəngindir.

Təzə turp yemək vitamin və mineral qəbulunu daha çox təmin edir. Kəsilərdən dərhal sonra qəbul edilməsi tövsiyə olunur. Aldıqdan sonra bir neçə gün soyuducuda saxlaya bilərsiniz. Adıçəkilən tərəvəzi saxlamağın başqa bir yolu turşusunu qoymaqdır.

Sücayət Mehti

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətlərinə uyğun olaraq, ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi sahəsində zəruri tədbirlərin görülməsini davam etdirir.**



Fövqəladə Hallar Nazirliyinin (FHN) məlumatına görə, bu çərçivədə Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Çingiz Mustafayev küçəsində aparılan

# Ən azı 50 metr məsafə saxlanılmalıdır

## Neft və qaz kəmərlərinin mühafizə zolağında evlərin tikilməsi yolverilməzdir

monitorinq zamanı ərazidən keçən diametri 200 və 500 mm olan qaz xəttinin mühafizə zonası gözlənilmədən bilavasitə yaxınlığında - 1-6 metrliyində tikintisi başa çatdırılmış fərdi yaşayış evləri, həmçinin inşası davam edən tikililər aşkar olunub. Müəyyən edilib ki, qeyd olunan ünvandakı tikinti işləri müvafiq icazəverici sənədlər olmadan kobud pozuntularla, o cümlədən normativ ara məsafələri gözlənilmədən aparılıb. Aşkar olunmuş faktla bağlı FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən aidiyyəti üzrə rəsmi müraciətlər ünvanlanıb.

Mütəxəssislər də mühafizə zonası düşən ərazilərdə yaşayış məskənlərinin salınmasının yolverilməz olduğunu qeyd edir.

Lakin aidiyyəti qurumların və mütəxəssislərin vətəndaşlara, bu cür ərazilərdə yaşayış evlərinin tikintisini biznesə çevirən işbazlara müraciətlərinə baxmayaraq, bu cür hallar hələ də yaşanmaqdadır.

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin sözlərinə görə, boru kəmərlərinin mühafizə zonalarına düşən ərazilərdə fərdi ev tikmək yolverilməzdir. Onun sözlərinə görə, qanunvericilikdə hər hansı tikintinin aparılmasına kəmərin hər tərəfindən 50 metr məsafə saxlanılmaqla icazə verilir:** ”Neft və qaz kəmərlərinin mühafizə zolağında evlərin tikilməsi bu kəmərlərə zəruri hallarda texniki xidmətin göstərilməsi, o cümlədən qəza işlərinin operativ müdaxilənin və təmir-bərpa işlərinin aparılmasına ciddi şəkildə manеə yaradır. Bundan başqa, neft-qaz sızması nəticəsində partlayışlar baş verə bilər ki, bu da həmin ərazidə yaşayan insanların həyatı üçün təhlükə yaradır”.

Ekspertin sözlərinə görə, bu cür evlərlə bağlı yaşanan digər problem də sənədləşmə ilə bağlıdır. İnfrastruktur layihələrinin ərazisində torpağa mülkiyyət hüququ verilmir. Bu da evin qanunvericiliyə uyğun sənədləşdirilməsini, nəticə etibarilə əmlakın qanuni alqı-satqısını mümkünsüz edir.

Şəymən

# Bu il Azərbaycan Həcc ziyarətinə zəvvar göndərəcək

## Ziyarət şərtləri barədə tam məlumat verilmir, şəraitə uyğun müəyyən dəyişikliklər ola bilər

**Böyük ehtimalla bu il Azərbaycan Həcc ziyarətinə zəvvar göndərəcək. Qafqaz Müsəlmanları İdarəsi sədrinin 1-ci müavini müfti Salman Musayevin başçılıq etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistan Krallığı Həcc və Ümrə nazirliyinin dəvətilə bu ölkədə rəsmi səfərdə olub. Və tərəflər arasında keçirilmiş görüş və aparılan danışıqlar nəticəsində Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə nazirliyi ilə QMİ arasında 2023-cü il mövsümü üçün Həcc müqaviləsi imzalanıb.**



***Hacı Atif İsmayılov: "Zəvvar yola düşərkən ailəsinin bir illik xərcini təmin etdiyindən arxayın olmalıdır, ikinci əsas şərt sağlamlıqdır"***

Sənədi Səudiyyə Ərəbistanı tərəfindən nazir müavini cənab Əbdülfəttah bin Süleyman Əl-Maşşat, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən isə müfti Salman Musayev imzalayıblar. Bir neçə gün əvvəl Qafqaz Müsəlmanları İdarəsinin xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri bu haqda məlumat verərək bildirmişdi ki, Həcc ziyarətinin koronavirusla bağlı ötənilki şərtləri bir az yumşaldılacaq. Ötən il ziyarətə 65 yaşına qədər olan şəxslər gedə bilərdi. Çox ehtimal ki, bu il ziyarət üçün yaş məhdudiyyəti də olmayacaq. Amma yəqin ki, koronavirusa qarşı iki doza vaksin tələbi saxlanılacaq.

**Həcc ziyarətinə hazırlıqla bağlı ”Şərq”ə danışan ilahiyyatçı Hacı Atif İsmayılov qeyd etdi ki, ziyarət şərtləri barədə tam məlumat verilmir. Bu da şəraitlə bağlıdır. Şəraitə uyğun müəyyən dəyişikliklər ola bilər. Eləcə də, vaksinasiya ilə bağlı da vəziyyətə müvafiq qərarlar verilməsi mümkündür:** ”Ola bilər hər hansı yoluxucu xəstəliklər artsın, yoluxma sayında yüksəlmə olsun, bu şəraitdə şərtlərin dəyişməsi labüd olur. Yoluxucu xəstəliklərlə bağlı vəziyyət stabil olarsa, indiyədək vurulmuş peyvəndlər keçərli hesab ediləcək. Ümumiyyətlə, Həcc ziyarəti üçün sağlamlıq haqqında arayış hər zaman tələb olunur. Zəvvar özü də sağlamlığının qayğısına qalmalıdır ki, sonra Həcc əməllərini yerinə yetirməkdə çətinlik çəkməsin”. H.A.İsmayılov bildirdi ki, Həccin əsas şərtləri ziyarətə getməyi niyyət etmiş şəxsin ailəsinin bir illik xərcini təmin edəcək miqdarda maddi vəsaitə malik olmasıdır:

- Həcc ziyarətinə hazırlaşan şəxs bilməlidir ki, əgər maddi imkanı buna uyğundursa ziyarətə gedə bilər. Bu da ailənin bir illik xərcinin təmin edilməsinə bağlıdır. Zəvvar yola düşərkən ailəsinin bir illik xərcini təmin etdiyindən arxayın olmalıdır. İkinci əsas şərt sağlamlıqdır. Zəvvarın sağlamlığı Həcc ziyarəti üçün münasib olmalıdır. Həddindən artıq yaşlı, sağlamlıq problemi olanların Həcc ziyarətinə yollanması düzgün deyil. Müqəddəs ”Qurani-Kərim”də də Rəbbimiz Həcc ziyarəti üçün ”imkanı çatan” ifadəsini işlədir. Burada həm maddi imkan, həm sağlamlıq, həm də təhlükəsizlik nəzərdə tutulur. Borcun olması isə iki qisimdir. Ola bilər ki, şəxs kimdənsə borc alıb, amma borcun qaytarılması müddətinə hələ zaman var, bu şəxs Həcc ziyarətinə gedə bilər. Amma əgər borcu müəyyən vaxta qədər mütləq qaytarmalıdırsa, borc aldığı şəxslə borcun qaytarılmasına dair konkret müddət təyin edilib və o müddət də başa çatıb və yz yaxınlaşıb, bu halda borclu şəxs ilk növbədə borcunu qaytarmalıdır. Borcunu ödəməmiş Həcc ziyarətinə getməsi düzgün deyil. Bir şəxsin maddi imkanı var, boynuna Həcc ziyarəti düşür, lakin səhhəti buna mane olursa, o zaman şəxs başqa birisini müəyyən ücrət müqabilində öz əvəzindən naib təyin edə bilər, yəni xərci ödəmək şərtilə. Naiblik ücrətsiz də olur. Bu da qarşıdakı insanın istəyinə bağlıdır. Elə insan var, heç bir maddi təminat istəmədən başqasına naib olmağa razılaşır, sırf savab qazanmaq üçün.

**H.A.İsmayılov qeyd etdi ki, xanımların Həcc ziyarətinə yollanmasının da şərtləri var:**

- Qadın əgər ailəlidirsə, Həcc ziyarətinə hər hansı məhrəmi ilə yollanmalıdır. Bu, həyat yoldaşı da ola bilər, ata, qardaş və sair məhrəm insanlar da. Tək də gedə bilər. Bunun da öz şərtləri var. Qadının yaş həddi və sair. Amma qadın üçün ailənin bir illik xərci şərti yoxdur. Çünki ailənin təminatı kişinin üzərindədir. Qadın öz maddi imkanı, şəxsi gəliri hesabına Həcc ziyarətinə gedə bilər və bu zaman ailənin xərcinin ödənib-ödənilməyəcəyi onun vəzifəsinə aid deyil. Bu məsələdə qadınların sərbəst qərar vermək hüququ var.

İlahiyyatçı qeyd etdi ki, builki Həcc ziyarəti ilə bağlı tətbiq ediləcək şərtlər Səudiyyə Ərəbistanı Krallığı Həcc və Ümrə nazirliyinin qərarlarından asılı olacaq. Həcc və Ümrə ziyarətlərinin təşkili SƏ-nin müəyyən etdiyi qərarlar daxilində olacaq. Hər ölkədən neçə zəvvarın göndəriləcəyinə də SƏ qərar verəcək. Pandemiya səbəbindən ötən illərdə zəvvar sayı xeyli azaldılıb. Bu il mümkündür ki, zəvvar sayı artırılsın. Qiymətlərdə də çox güman ki, dəyişiklik olacaq. Hələ qiymətlər açıqlanmayıb, lakin qiymətlərin yüksələcəyi labüddür.

Məlahət Rzayeva

## “İŞİD gəlini" evinə qayıtmaq istəyir

“Mənim çarəm evlənmək idi, peşmanam”

(Əvvəli səh: 8-də)



**Həmin il təşkilatda Əbu Cihad Əl-Australinin kod adı ilə tanınan Avstraliya vətəndaşı Suhan Rəhmanla evlənən Muthana sosial media hesabları vasitəsilə mülki şəxslərə qarşı terror hücumlarına dəstək verib və təşkilata daha çox silahlı cəlb etməyə çalışıb.**

Rəhmanın 2015-ci ildə öldürülməsindən sonra təşkilatın üzvü olan Tunis vətəndaşı yaraqlı ilə ailə quran Muthanın bu evliliyindən bir oğlu olub. 2017-ci ildə ikinci əri öldürüldükdən sonra yenidən evlənən Muthananın üçüncü evliliyi də boşanma ilə nəticələnib. Hoda Muthana DAİŞ-in tədricən gücünü itirdiyi dövrdə üzləşdiyi çətinliklərə görə 10 yanvar 2019-cu ildə ABŞ əsgərlərinə təslim olub. ABŞ vətəndaşı olduğunu bildirən qadın ölkəsinə qayıtmağı tələb edib.

Hoda Muthananın Birləşmiş Ştatlara qayıtmaq istəyi ABŞ-ın o zamankı prezidenti Donald Trampın dövlət katibi Mayk Pompeoya Muthanın ABŞ-yə qayıtmasına icazə verməmək göstərişi ilə ilişib qalmışdı. Muthanın 2016-cı ildə Barak Obama administrasiyası tərəfindən vətəndaşlıqdan məhrum edildiyini xatırladan Pompeo, ”Xanım Hoda Muthana ABŞ vətəndaşı deyil və ABŞ-yə qəbul edilməyəcək. Onun heç bir hüquqi əsası, etibarlı ABŞ pasportu yoxdur”.

Son olaraq 2022-ci ildə ABŞ məhkəmələrinin qərarı ilə gündəmə gələn Muthana Suriyadakı həbsxanada ABŞ mətbuatına açıqlama verib. Övladından başqa etdiyi hər şeydən peşman olduğunu və ölkəsinə qayıtmaq istədiyini bildirən qadın, ”Lazım olsa mühakimə olunmaq, həbs olunmaq istəyirəm. O zaman beynim yuyulmuşdu.

Ümid edirəm ki, ABŞ hökuməti təşkilata üzv olanda gənc və sadəlövh bir insan olduğumu nəzərə alacaq”.

2014-cü ildə Suriyaya daxil olduqdan sonra təşkilatın düşərgələrindəki çətin şəraiti ”Həyatımda görmədiyim çirkli və murdar yer idi. Yüzlərlə qadın və uşaq var idi. Xaosdan və səs-küydən qurtulmaq üçün yeganə yol evlənmək idi”, - deyə bildirib.

Turan

**Elan**

Cəbiyev Elvin Rafiq oğluna məxsus 003322 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 100



## Hökumətdən maraqlı qərar

Siqaret kötüklərini küçələrdən özəl şirkətlər toplayacaq

**İspaniya hökuməti maraqlı qərar verib. Hökumətin qərarıyla bundan sonra küçələrdə yerə atılmış siqaret kötüklərini özəl şirkətlər toplayacaq. Qərara görə, şirkətlər topladıqları siqaret kötüklərini tullantı mərkəzlərinə təslim etməlidir.**

Bu qərar Avropa Birliyinin ətraf mühitin qorunması üzrə icrasına başladığı layihələrindən biridir. Layihəyə əsasən, küçələrdə, digər ictimai yerlərdə, həmçinin dəniz sahilində yerə atılmış siqaret kötükləri toplanmalıdır. Bu iş isə siqaret şirkətlərinin üzərinə vəzifə olaraq qoyulur. Tütün şirkətləri siqaret kötüklərini toplamalı və tullantıların emal edildiyi müəssisələrə təhvil verməlidirlər. Lakin qaydalar hələ də tam dəqiqləşməyib. İspaniyadakı tütün istehsalçısı şirkətlər qaydalar barədə məlumatlandırılmadıqlarını bildiriblər. Tütün şirkətlərinin bu iş üçün çəkəcəyi xərcin siqaretin qiymətinə nə dərəcədə təsir edəcəyi də hələ bilinmir. İctimaiyyət isə yeni qərarı dəstəkləyir. 2020-ci il statistikasına görə, İspaniyada yetkinlik yaşına çatmış nüfuzun 5-də 1-i siqaret çəkir. Aralıq dənizinin qərb sahillərində tullantıların böyük hissəsini isə məhz siqaret kötükləri təşkil edir. Bunun ətraf mühitə böyük zərəri nəzərə alınaraq İspaniya hökuməti ictimai çimərliklərdə açıq havada siqaretdən istifadəni qadağan edib, qadağanı pozanlar 30 avro miqdarında cərimələnir.

**Məlahət**

## Xarici şirkətlərin oyunları alınmadı

Nazir saxta xərçəng dərmanı açıqlaması verib



**Türkiyənin səhiyyə naziri Fahrettin Koca Nazirlər Kabinetinin iclasından sonra jurnalistlərə açıqlamalar verib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, gündəmdə olan saxta xərçəng dərmanı araşdırması ilə bağlı danışan nazir Koca, xaricdən dərman gətirmək üçün "Xaricdən Dərman Tədarükü və İstifadə Təlimatının" dəyişdirilməsi ilə bağlı iddiaları təkzib edib.

Koca qeyd edib ki, Türkiyə Dərman və Dərman Agentliyinin vəzifəsi dərman almaq deyil, lisenziya verməkdir.

"Banqladeş, İran, Argentina, Tayvan kimi lisenziyası olmayan dərmanlar üçün Türkiyəyə girmək istəyi var" deyən Koca, təlimat dəyişikliyi ilə tədbirlərin daha da sərtləşdirildiyini bildirib. O bildirib ki, yeni bələdçi bu şirkətlərin oyunlarını qırıb.

Koca qeyd edib ki, Banqladeşdən sözügedən dərmanın bir qutusu belə Türkiyəyə daxil olmayıb və xəstələrdə istifadə edilməyib.

**Turan**



# "İŞİD gəlini" evinə qayıtmaq istəyir

"Mənim çarəm evlənmək idi, peşmanam"

**ABŞ-nin Alabama ştatında böyüyən Hoda Muthananın həyatı İŞİD yaraqlıları ilə tanış olduqdan sonra tamamilə dəyişib. Qəfildən terrorçu kimi axtarışa verilib və vətəndaşlığı əlindən alınıb. "Şərq" xarici mediaya ictinadən xəbər verir ki, Muthanın hekayəsi ABŞ-də başlayıb. 28 oktyabr 1994-cü ildə ABŞ-nin Nyu-Cersi ştatında yəmənli ailədə anadan olan Muthana ABŞ sərhədləri daxilində doğulduğu üçün Birləşmiş Ştatlar vətəndaşı olub və uşaqlıq illərini Alabamada dindar ailəsi ilə keçirib. Təqvimlər 2010-cu illəri göstərəndə İŞİD yaraqlıları ilə tanış olub və həyatı tamamilə dəyişib.**

2010-cu illərin əvvəllərində onun yaşadığı yerdən minlərlə kilometr uzaqda Yaxın Şərqdə baş verən proseslər bütün dünya tərəfindən narahatlıqla izlənilirdi. Tarixə "ərəb baharı" kimi keçən etirazlar dalğalar şəklində bütün coğrafiyaya təsir göstərmiş və xüsusilə avtoritar rejimləri bir-bir sarsıtmağa başlayıb. Bütün bu prosesdə dünyanı sarsıdan hadisələr ABŞ işğalının izlərinin hələ də silinmədiyi İraqda bir-birinin ardınca yaşanmağa başladı.

Terror təşkilatı İŞİD ölkənin ən böyük şəhərlərindən biri olan Mosulu ələ keçirdikdən sonra güclənməyə başlayıb. Qəbul etdiyi torpaqları tədricən genişləndirən terror təşkilatı qısa zamanda İraq və Suriyanın əhəmiyyətli bir hissəsində nəzarəti ələ keçirib. Hadisələr milyonlarla insanın həyatına dərindən təsir etdi. Bu şəxslərdən biri də ABŞ-ni tərk edərək Suriyaya gedən və DEAŞ-yə qoşulan Hoda Muthana idi.

Dünyanın dəhşətlə izlədiyi hadisələr zamanı Muthana hələ orta məktəbdə oxuyurdu. Sosial mediada vaxt keçirməyi sevən Muthana rəqəmsal mühitdə DEAŞ terror təşkilatı ilə ilk əlaqəni qurub. Muthana hələ də həbsdə olduğu Suriyada verdiyi müsahibədə "Mən sadəlövh, qəzəbli və təkəbbürlü bir gənc idim. Təşkilata qoşulmaq üçün sosial media hesabım vasitəsilə mənimlə əlaqə saxladılar. Mən insan alverçiləri tərəfindən manipulyasiya edildim və onlar az qala beynimi yuyub təşkilata qoşulmağa məcbur etdilər" deyir.



Muthana 2014-cü ildə məktəbə getdiyini deyərək evdən çıxıb və bir daha evə qayıtmayıb. Ailəsindən gizlənən gənc qadın universitetdəki təhsil çeklərini nağdlaşdıraraq ABŞ-ni tərk edərək DEAŞ-yə qoşulmaq üçün Suriyaya gedib.

*(Daavmı səh: 7-də)*

**Turan**

## Ancelina Colinin qızı yeni imici ilə diqqət çəkib



**Hollivud ulduzu Ancelina Coli ilə keçmiş həyat yoldaşı Bred Pittin qızları Şilo və Zahara ötən gün paparatsilərə tuş gəlib.**

**Axşam.az xəbər verir ki, Los-Ancelesdə obyektivə tuş gələn bacılardan 16 yaşlı Şilo yeni imici ilə diqqət çəkib. Bir müddətdir uzun saçları ilə dəfilə və tədbirlərə qatılan Şilo yenidən saçlarını qısa kəsdirib. İzləyicilər onu Ancelinanın 90-cı illərin sonlarında istifadə etdiyi qısa saçlı tərzi ilə müqayisə ediblər.**

***Qeyd edək ki, Şilo bir müddət əvvəl cinsiyyətini dəyişdirmək istəməsi ilə gündəmdə idi.***

## Əfqanıstanda gözəllik salonları bağlanacaq



**Əfqanıstanda qadın gözəllik salonları bağlanacaq.**

**APA xəbər verir ki, bu barədə "Al Arabiya" televiziya kanalı "Telegram"da məlumat yayıb.**

**Məlumatda deyilir ki, Əfqanıstanda hakimiyyəti ələ keçirmiş radikal Taliban hərəkatının rəhbərliyi ölkədə qadınlar üçün gözəllik salonlarının bağlanması barədə göstəriş verib.**

## Şahzadə Harri kitabında əsl atasının kimliyindən yazıb



**Şahzadə Harri anası Şahzadə Diana ilə sevgilisi, mayor Ceyms Hevittin övladı olması ilə bağlı iddialara son qoyub.**

**Axşam.az xəbər verir ki, Harri Diananın Ceymslə o dünyaya gələndən sonra tanış olduğunu bildirib. Şahzadə iddiaların yaranmasının əsl səbəbini Ceymsin qırmızı saçları ilə bağlı olduğunu deyib və bu şayiələri alçaldıcı adlandırıb.**

**Harri zarafatla etiraf edib ki, şayiələrdən xəbəri olub və hətta atasının kimliyindən əmin olmadığı anlar yaşayıb.**

**Bu barədə kitabında yazan şahzadə "Maqazin xəbərlərinin oxucuları Harrinin Şahzadə Çarlzın əsl oğlu olmaması fikrini çox sevirdi. Nədənsə həmin "zarafat" onları heç vaxt narahat etmirdi. İş o yerə çatdı ki, jurnalistlər onun DNT nümunələrini oğurlamağa və kral ailəsi ilə əlaqəsini qeyri-rəsmi şəkildə yoxlamağa çalışdılar" sözlərini qeyd edib.**



## Körpələrdə qəbizliyə qarşı nə daha yaxşıdır?

**Valideynlərin körpələrlə bağlı yaşadıqları bir sıra problemlər və narahatlıqlar var. Bu xəstəliklərdən biri də körpələrdə qəbizlikdir.**

Adətən qəbizlik problemi qəbizliyə səbəb olan vəziyyətin aşkarlanması və aradan qaldırılması ilə həll edilə bilər. Bununla belə, əsas səbəbi müəyyən etmək və simptomun müalicəsi üçün bir sağlamlıq müəssisəsinə müraciət etmək lazım ola bilər. Körpələrdə qəbizlik problemi evdə tətbiq oluna biləcək bəzi üsullarla da həll edilə bilər.

- Uşağınızın bol maye qəbul etməsinə diqqət edin. Əgər körpəniz 6 aydan kiçikdirsə və ana südü ilə qidalanırsa, başqa maye qəbul etməyə ehtiyac yoxdur. 6 aydan yuxarı körpələr üçün gündə 900 ml-ə qədər maye içmək tövsiyə olunur.

- Tamamlayıcı qidalara başladıqdan sonra körpənizə 100 ml-ə qədər təzə sıxılmış meyvə suyu verə bilərsiniz. Meyvə şirələri işlətmə təsirinə malikdir və qəbizliyin qarşısını alır.

Liflə zəngin qidalara çəki verməklə qəbizliyi aradan qaldırmaq mümkündür.

- Uşağınızın velosiped sürdüyü kimi hərəkət etməsini təmin edin. Bu cür hərəkətlər həzmi asanlaşdıra bilən bağırsaqları da hərəkət etdirə bilər.

- Bir əlinizlə körpənizin qarnını yumşaq və dairəvi hərəkətlərlə masaj edin.

- Uşağınıza isti vanna verə bilərsiniz. İsti vanna da bağırsaq hərəkətlərinə səbəb ola bilər.

- Anal nahiyəyə qliserin çəkə bilərsiniz. Bu, defekasiyanı asanlaşdıra bilər.

Yuxarıda göstərilən üsulların tətbiqinə baxmayaraq davamlı qəbizlik problemləri zamanı mütləq həkimə müraciət etmək lazımdır.

Qəbizliyin qarşısını almaq üçün körpələr yaxşı müşahidə edilməlidir. Körpənin nəcisinin tezliyi və forması da qeyd edilməlidir. Bu müşahidələr körpənin həkimi ilə paylaşılmalıdır.

Bu gün süni qidalarla qidalanan körpələrdə ana südü ilə qidalanan uşaqlardan daha çox qəbizlik olur. Körpələr hazır süni süd qarışığı ilə qidalanırsa, formula düzgün hazırlanmalıdır. Ana südü ilə qidalanan körpələrdə az maye qəbulu səbəbindən qəbizlik də ola bilər.

Bərk qidalar qəbul edən körpələrdə daha asan həzm olunan lifli qidalara üstünlük verilə bilər, qida rasionuna yüksək lifli təzə tərəvəz və meyvələr əlavə edilməlidir.

Alma, gavalı, şaftalı, armud, albalı kimi meyvələr, yulaf əzməsi, brokoli kimi qidalar qəbizliyin qarşısını almaqda təsirli olduğu üçün diyetə əlavə oluna biləcək sağlam qidalar arasındadır. Tərkibində yüksək maye olan və probiotik bakteriyaları olan qidalar da körpəyə kifayət qədər miqdarda verilməlidir. Körpələrdə qəbizliyi müalicə etmək üçün istifadə edilən bəzi dərmanlar da var. Həkimin məsləhəti ilə qəbul edəcəyiniz dərmanlar körpənin bağırsaqlarını işlətməklə nəcisin tezliyini artıracaq.

**Turan**

## Çox şirniyyat yeyən qadınlarda xərçəng xəstəliyi yaranır bilir



**Xərçəngin yaranmasına səbəb olan xarici amillərdən biri də qidalanma və xüsusilə normadan artıq şirniyyat və qızartma yeməkdir.**

"Medicina" xəbər verir ki, onkoloq həkim Anton İlyin onkoloji xəstəliklərin səbəbləri haqqında danışıb.

Qadınlarda xərçəngin yaranması şəkərli diabet, hipertoniya, piylənmə kimi xəstəliklərin mövcudluğu ilə bağlı olur. Şişlərin yaranmasına həkimin təyinatı olmadan hormonal vasitələrin qəbulu da tezləşdirə bilər.

O, əlavə edib ki, qadınlarda menopauzanın gec başlaması da həmçinin riskin amilləri sırasındadır.

50 yaşından gec menopauzası başlayan qadınlarda estrogen hormonu çoxluğundan bir çox orqanlarda şişlər yarana bilər.

## Məzarını sağ ikən tikdirdi

Hər gün gedib üstünə uzanır






**Bursada keçmiş futbolçu Əli Aytəkin (67) sağ ikən ölümü xatırlamaq üçün öz məzarını tikdirib. Hər gün gedib qəbrinin üstünə gülləri sulayan vətəndaş ən azı bir saatını məzarı üstündə uzanaraq keçirir.**

Məqsədinin hər kəsə ölümü xatırlatmaq olduğunu bildirən və göz yaşları içində "Ölüm var, ölüm var" deyir Əli Aytəkin: "Bir gün biz bu məzara girəcəyik. Mən öz qəbrimi tikmişəm ki, hamı ölümü düşünsün, hamıya örnək olsun".

**Əli Aytəkin məzarının üstünə işarə qoyub. O, "Son dayanacaq" adlı lövhənin üzərində bu sözləri yazıb:** "Mən bir gün qəbiristanlığı ziyarət etdim. Kimin varlı, kimin kasıb olduğunu anlaya bilmədim. Bircə anladığım odur ki, hamısı Fatihəni gözləyir".